02_27 IYUl-QARA.qxd 1/18/2024 10:44 PM Page 1


# UNİKAL

№02 (2184) 19 yanvar 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# Azərbaycandan Fransaya sərt təpki: Bütün "körpülər yandırılır"



Səh.9

## Mustafa Abbasbəylini təkzib edən işsizlik gerçəkliyi

*Dünən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin keçirilən iclasında deputat Jalə Əliyev işsizlik probleminə toxunub və maraqlı fikirlər səsləndirib. "Ürəyim əsir ki, qəbullarda bizə müraciət edən seçicilər işlə bağlı müraciət etməsin. Çünki kömək etmək mümkün deyil, bu, çox çətin olur" - deyən xanım millət vəkilinin sözlərinə görə, dövlət yeni iş yerlərinin açılması istiqamətində bir çox işlər görsə də, yerlərdə işlə təminatla bağlı məsələ sanki daha da mürəkkəbləşdirilir: "Vətəndaş dövlət qurumlarının qapısı arasında sanki yol ölçür. Nəhayət bizdən kömək istəyir. Ona görə də məşğulluq məsələsinin koordinasiya...*

Səh.7

## "Bu, onlar tərəfindən irəli sürülən qeyri-ciddi təkliflərdir"



*Milli Məclisin deputatı Arzu Nağıyev "Unikal"a müsahibə verib. O, "Hərbi qulluqçuların statusu haqqında" qanuna ediləcək dəyişikliklərin əhəmiyyətindən, Ermənistanın silahlanmasının məqsədindən, işğalda olan 8 kəndin nə zaman qaytarıla biləcəyindən və Müdafiə Nazirliyindəki son kadr islahatlarından danışıb.*

Səh.4

## "Ürəyim əsir ki, seçicilər işlə bağlı müraciət etməsin" - Jalə Əliyeva



*"Ürəyim əsir ki, qəbullarda bizə müraciət edən seçicilər işlə bağlı müraciət etməsin. Çünki kömək etmək mümkün deyil, bu, çox çətin olur". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin bu gün keçirilən iclasında deputat Jalə Əliyeva deyib. Onun sözlərinə görə...*

Səh.8

## Əhali arasında yayılan xəstəlik nədir? - TƏBİB-dən açıqlama



*Hər il olduğu kimi, payız-qış mövsümündə havaların soyuması ilə əlaqədar tənəffüs yolu infeksiyalarında artım müşahidə edilir. Bu barədə "Unikal"a TƏBİB-dən məlumat verilib. Qeyd edilib ki, son günlərdə insanlar arasında boğaz qıcıqlanması, boğaz ağrısı, yüksək olmayan temperatur...*

Səh.2

02_27 IYUl-QARA.qxd 1/18/2024 10:45 PM Page 2



# "Aygün Kazımovanın bu işində onların əli var"



***Xəbər verdiyimiz kimi, Xalq artisti Aygün Kazımovanın 1,4 milyondan çox izləyicisi olan səhifəsi oğurlanıb.***

”Həmin Zaur”da qonaq olan müğənni Səidə Sultan bu işdə yerli ifaçıların barmağının olduğundan şübhələndiyini bildirib:

”İngilisin nəyinə lazımdır ki, Aygün Kazımovanın səhifəsini oğurlasın və xaricdən öz şəkillərini, videolarını qoysun. Mənə çatmayan budur, inandırıcı deyil. Mənə elə gəlir ki, kiminsə əli ilə olan bir işdir. Çünki mümkün deyil. Necə ola bilər ki, bir xanımın rəsmi səhifəsini silib, başqa müğənnilərin şəklini qoyurlar. İngilis bizim ifaçıları haradan tanıyır?”.

Müğənni Zaur Kamalın ”Bizim müğənnilərin işidir” sualına isə ”Mən belə yanaşıram” cavabını verib.

Qeyd edək ki, bir neçə dəqiqə əvvəl Aygün Kazımovanın səhifəsini ələ keçirilənlər onun hesabında paylaşım edərək müğənniyə şantaj ediblər.

# Şəbnəm bu sözləri Vəfaya deyib?



***”Gözü tox xanımam. Bahalı hədiyyələrlə başı aldadıla biləcək xanım deyiləm”.***

Bu sözləri müğənni Şəbnəm Tovuzlu ”Rəngarəng səhər” verilişində deyib. Sənətçi ”Sevən kişi hədiyyə ilə qadının önündə özünü bağışlatmaz. Sevən insan hər zaman fədakar olur. Bu insanlar üçün hər gün bayram olur. Şəxsən özümdən deyirəm ki, bir bəydə fədakarlığı çox sevirəm. Hədiyyə vermək baş aldatmaq kimidir. Belə olanda isə xanım yalnız bəyin cibinə və verdiyi hədiyyəyə baxacaq” sözlərini əlavə edib.

Aparıcı Zaur Nəbioğlu ad çəkmədən Şəbnəmin bir neçə gün əvvəl barışmaq üçün həyat yoldaşının ona ev bağışladığını açıqlayan Vəfa Şərifovaya daş atdığını söyləyib.

Ş. Tovuzlu isə ”Əsla... Bilirəm, nəyi deyirsiniz, amma yox, elə düşünülməsin” reaksiyasını verib.

Qeyd edək ki, bir müddət əvvəl müğənni Vəfa Şərifova həyat yoldaşı, iş adamı Famil Xəlilovla ayrıldığını açıqlamışdı. O, daha sonra verilişlərdə uşaqlarının atasının barışmaq üçün ona bahalı evlər bağışladığını deyib.



# “Hozunun biri...” - Mətanət Əsədova sevgilisindən ayrıldı

***“Bir də görürsən hozunun biri gəlir, hissi, duyğusu, eşqi olmur. Adam əsəbdən puç olur”.***

Bakıvaxtı.az xəbər verir ki, bu sözləri müğənni Mətanət Əsədova “Kim var, kim yox?” verilişinə açıqlamasında deyib.

O, həm sənətindən, həm də şəxsi həyatından gileylənib: “Heç nə istəmirəm. Artıq yalnız sənətimlə məşğul olmaq istəyirəm. Ətraf da insanı yorur. Bir az başqa problemlər olurg Sırf sənətə yönəlməlisən. Bizim sənət çox eqoist sənətdir. Gərək başqa işin olmasın, ancaq onunla məşğul olasan”.

Qeyd edək ki, Əsədovanın son zamanlar sevgilisinin olması ilə bağlı iddialar var idi. Bu açıqlamadan sonra izləyicilər onun sevgilisindən ayrıldığını bildiriblər.

# Türkan sərt danışdı: "Öz bildiyimizi edəcəyik"



***“Son zamanlar görürəm ki, xalq mahnıları oxuyanlar da, sənətkarlar da, sənətdən xəbəri olmayanlar da çıxıb bizdən danışır, tənqid edirlər”.***

Bakıvaxtı.az xəbər verir ki, bu sözləri müğənni Türkan Vəlizadə açıqlamasında deyib. İfaçı adının digər həmkarları ilə eyni sırada çəkilməsinə etiraz edib: “İnanıram ki, məni tanıyanlar, sənətimi bilənlər o adlar arasında mənim də adımı qeyd etməzlər, utanarlar. Çəkən insanlara da efir vasitəsilə demək istəyirəm ki, hər kəs öz işi ilə məşğul olsa, daha yaxşı olar. Mən həmişə böyük-kiçik yeri bilmişəm, ona görə sayılıb-seçilən müğənnilərdənəm. Hər dəfə adımı çəkənlər var ee, o insanlar çörək qazana bilmir. Baxırlar ki, bu gün kimlər daha çox el şənliklərindədir, daha çox qazanırlarg Məncə, siz də elə mahnılar ifa etməlisiniz ki, çörək qazanasınız. Bizim məsləhətə ehtiyacımız yoxdur. Onsuz da öz bildiyimizi edəcəyik”.

Vəlizadə toylarda xalq mahnıları da ifa etdiyini bildirib: “Mən bütöv toylar da idarə edirəm. Orada ancaq öz mahnılarımı ifa etmirəm ki... Xalq mahnıları da, bəstəkar mahnıları da oxuyuram. İnsanların çoxu bilir ki, mən çox gözəl toy idarə edirəm”.

# Röya keçmiş əri ilə görüntülərini paylaşdı



***Xalq artisti Röya Ayxan sosial şəbəkə hesabında keçmiş həyat yoldaşı Anar Cəlilovla ilə olan arxiv görüntülərini paylaşıb.***

”Unikal” xəbər verir ki, videoda o, eks-əri A.Cəlilovla rəqs edir. Həmçinin, videoda mərhum müğənni Rəhim Rəhimli də yer alıb.

Röya videoya "köhnə xatirələr” başlığını verib və paylaşımına ürək emojisini əlavə edib.

Qeyd edək ki, Anarla Röya 2008-ci ildə ailə qurub və onların Hüseyn adlı oğlanları var. Cütlük 2014-cü ildə boşanıb.



## "Ürəyim əsir ki, seçicilər işlə bağlı müraciət etməsin" - Jalə Əliyeva

***"Ürəyim əsir ki, qəbullarda bizə müraciət edən seçicilər işlə bağlı müraciət etməsin. Çünki kömək etmək mümkün deyil, bu, çox çətin olur".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin bu gün keçirilən iclasında deputat Jalə Əliyeva deyib.

Onun sözlərinə görə, dövlət yeni iş yerlərinin açılması istiqamətində bir çox işlər görsə də, yerlərdə işlə təminatla bağlı məsələ sanki daha da mürəkkəbləşdirilir: "Vətəndaş dövlət qurumlarının qapısı arasında sanki yol ölçür. Nəhayət bizdən kömək istəyir. Ona görə də məşğulluq məsələsinin koordinasiya edilməsi mühümdür. Bölgələrdən mərkəzə gəldikdə sanki bir qopuqluq var. Vətəndaşla qurum arasında körpü rolunu oynamağa çalışsaq da, bizə verilən cavablar formal olur. Vətəndaşı da işlə təmin etmək qeyri-mümkün olur. Bu kimi məsələlərin dinləmədə nəzərə alınması yaxşı olardı".

"Belə fikir yaranmasın ki, ölkədə yeni iş yerləri açılmır. Çünki ölkəmizdə hər il yüz mindən çox yeni iş yerləri açılır. Ona görə də dinləmdə demoqrafik vəziyyət məsələsi gündəmə gəlməlidir", - komitə sədri Musa Quliyev deputata cavabında qeyd edib.

***Anar Kəlbiyev***

## Qazilər, şəhid ailələri işlə bağlı müraciət edirlər, aciz qalırıq - Deputat



***"Hər gün bizə işlə təmin olunma ilə bağlı müraciətlər daxil olur".***

Bu barədə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında deputat Rauf Əliyev bildirib.

"Demək olar ki, bizə gün ərzində qazilər, şəhid ailələri işlə bağlı müraciət edirlər. Biz onların yanında aciz qalırıq. Belə ki, biz onlara əlillik dərəcəsini veririk, sonra isə onları işə götürmürlər. Ona görə də bu barədə problemləri həll etməyə çalışmalıyıq", - o qeyd edib.

Deputat şagirdlərin dərs yükü ilə bağlı məsələni də gündəmə gətirib. O qeyd edib ki, proqramların yüklənməsi məsələsi valideynlər tərəfindən qaldırılır:

"Onlar bizə bildirirlər ki, biz işləyirik, axşam saatlarında evə gəlirik, uşaqlar da saat üçə qədər dərs oxuyurlar. Xüsusilə də birinci siniflərin dərs yükləri çoxdur. Çıxıb açıqlama verilməlidir ki, dərs proqramlarının yükü azaldılacaqmı?".

# Oliqarx qardaşlar arasında yeni qovğa

## İbrahimovlar yanan mebel sexin kimə məxsus olduğu ilə bağlı niyə bir-birlərini yalançı çıxarırlar?



***Azərbaycanda iş adamları kimi tanınan İbrahimov qardaşları arasında yeni mübahisə düşüb. Mübahisə isə Binəqədi rayonu, A.Kunanbayev küçəsi yaxınlığında partlayış baş verən mebel sexi ilə bağlı yaranıb.***

Belə ki, "Qaynarinfo" sözügedən mebel sexinin Diasporla İş Üzrə Dövlət Komitəsinin keçmiş sədri Nazim İbrahimovun qardaşlarına məxsus olması barədə məlumat yayıb. Məlumatda bildirilib ki, Binəqədi rayonundakı keçmiş Ağac Emalı Zavodu "İBRA Holdinq"in prezidenti Tağı İbrahimov tərəfindən özəlləşdirilib. Sexin təsisçisi Tağı İbrahimov və "Avesta" şirkətinin sabiq prezidenti Hacı İbrahim Nehrəmlidir.

Diasporla İş Üzrə Dövlət Komitəsinin keçmiş sədri Nazim İbrahimovun qardaşı olan "Avesta" şirkətinin sabiq prezidenti Hacı İbrahim Nehrəmli bununla bağlı açıqlama verib. O, sözügedən sexlərin ona və qardaşı Tağı İbrahimova məxsus olduğunu təsdiqləyib: "Bəli, sexlər bizimdir. Ağac Emalı Zavodunu özəlləşdirib, yerində Tağı İbrahimov yaşayış binası tikəcəkdi. Bununla bağlı layihə də vermişdik. Hələlik təsdiqlənmədiyi üçün ərazini sahibkara icarəyə vermişdik və bu hadisə baş verdi. Həmin sahibkar da hadisə zamanı dünyasını dəyişib. Yazıq Tağı buna nə etsin? İcarəyə vermişdi, bütün texniki təhlükəsizliyə sözügedən sahibkar cavabdeh idi".

Hacı İbrahim hadisənin baş verməsinin səbəbini də açıqlayıb: "Hadisə qaz balonunun partlaması və boyaların üzərinə qığılcımın düşməsi nəticəsində baş verib. Birinci icarəyə verdiyimiz sexdə tüstülənmə başlayıb, alov maşının üzərinə düşüb. Daha sonra maşını itələyərək çölə çıxarsalar da, sonda hadisə baş verib. Bütün sexlərə cavabdeh şəxs Həmid idi. Biz qanun nəyi tələb edirsə, onu da etmişdik. Fövqəladə Hallar Nazirliyindən də sözügedən sexlərin fəaliyyəti üçün sənədlər alınıb. Hadisə zamanı Həmid də dünyasını dəyişib. Ordakı işlərə cavabdeh də Həmid idi. Bizlik bir şey yoxdur".

Lakin maraqlı burasıdır ki, digər qardaş - Tağı İbrahimov bu deyilənləri inkar edib. Hətta o, qardaşı İ.Nehrəmlini yalan danışmaqda günahlandırıb. Belə ki, T.İbrahimov demokrat.az-a açıqlamasında sözügedən mebel sexinin sahibi olduğunu inkar edib: "Yanan mebel sexi mənim deyil, bunun bizimlə əlaqəsi yoxdur".

Hazırda Türkiyədə olduğunu deyən T.İbrahimov daha sonra deyib: "Qardaşım yalan deyir, o obyektin mənimlə heç bir əlaqəsi yoxdur. O bina Həmid müəllimin olub, o da bir neçə il əvvəl icarəyə verib".

Xatırladaq ki, yanvarın 16-da TƏBİB-dən yayılan açıqlamada haqqında danışılan mebel sexindəki yanğın nəticəsində xilasedicilər tərəfindən dağıntılar altından 3-ü sağ çıxarılmaqla, ümumilikdə 24 nəfərin xəsarət aldığı, 7 nəfərin meyitinin tapılaraq aidiyyəti üzrə təhvil verildiyi bildirilib.

Onu da deyək ki, İbrahimovlar Azərbaycanda oliqarx qardaşlar kimi məşhurdurlar və onların hər birinin adı ətrafında uzun illərdir müxtəlif qalmaqallar yaşanır. Məsələn, Nazim İbrahimov Diasporla İş Üzrə Dövlət Komitəsinin sədri olarkən külli miqdarda dövlət vəsaitini təyinatsız xərcləməkdə günahlandırılıb, iddialara görə, elə bu səbəbdən də postunu itirib. Nehrəmli İbrahimin başı isə həm banklara, həm də vergi borcları səbəbindən uzun müddədir ki, dərddədir. Hətta bir neçə il öncə bu borclara görə onun həbs məsələsi də gündəmə gəlmişdi. Onun heç bir səmərəsi olmayan, özünün etirafına görə, təyyarədə birdən-birə beyninə gələn "Xəzər adaları" layihəsi çərçivəsində 1 milyard dollardan çox vəsaiti sulara axıtdığı da ortaya çıxmışdı. Hətta həmin səbəbdən həbsi məsələsi yenidən aktuallaşmışdı. Bununla belə, İbrahimov qardaşları arasında yolu həbsxanadan düşən də olub. Belə ki, daha çox tikinti sahəsində fəaliyyət göstərən Sahib İbrahimov Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq; külli miqdarda törədildikdə) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham olunaraq həbs edilmişdi. Vaxtilə ATV telekanalının sahibi olmuş Tağı Əhmədov isə 2012-ci ildə onu satmaq məcburiyyətində qalmışdı. Əhmədovun bu telekanalın arxasında gizlənərək müəmmalı şəkildə on milyonlarla manatlıq varidata yiyələndiyi deyilirdi.

İbrahimov qardaşları barəsində ən maraqlı məqamlardan biri isə onların arasında "soyuq küləklərin" əsməsidir. Məsələn, İ.Nehrəmli bir dəfə mediaya açıqlamasında Nazim İbrahimovun qardaşı kimi təqdim edilməsinə qəzəblənmişdi: " "Nazim kimdir ki, mən onun qardaşı olum?! Mən Hacı İbrahiməm. Nazim İbrahimov məndən 6 yaş kiçikdir. Məni bütün ölkə özümə görə tanıyır, hamı bilir ki, mən kiməm. Uzun illərdir ki, bizneslə məşğulam, ölkə ilə bir adım-sanım var. Nazim də hər yerdə deyir ki, Hacı İbrahimin qardaşıyam". Həmin açıqlamadan öncə isə o, N.İbrahimovla xeyli vaxtdır görüşmədiyini demişdi.

İbrahim Nehrəmli digər qardaşı Sahib İbrahimovun həbs xəbərinə də laqeydliklə münasibət bildirmiş, "Əgər həbs olunubsa, Allah qapısını açsın" deməklə kifayətlənmiş, onunla hər hansı əlaqəsinin olmadığını vurğulamışdı.

Elə S.İbrahimovun da həbs olunduqdan sonra öz qardaşlarından hər hansı dəstək görmədiyi səbəbindən incidiyi məlumdur.

Hərçənd oliqarx qardaşlarının birdən-birə inanılmaz şəkildə yüksəlişində, nəhəng biznesə, varidata səbəb olmalarında N.İbrahimovun komitə sədri təyinatının mühüm amil olduğu deyilir. Bildirilir ki, məhz bundan sonra qardaşların qarşısında geniş imkanlar açılıb.

Digər maraqlı məqam: İbrahimovlar arasında "soyuqluğun" əslində qurama olduğunu düşünənlər də var. Bəzi iddialara görə, qardaşlar öz aralarından hər hansı birinin yaşadığı uğursuzluğun, xoşagəlməzliyin digərlərinə problem yaratmaması üçün sanki küsülü imişlər kimi təəssürat yaradırlar, yeni bir növ bir-birlərini bu şəkildə qoruyurlar.

Ona görə də indi mebel sexindəki yanğının ardından həmin obyektin kimə məxsusluğu barədə təzadlı açıqlamalara qiymət vermək bir az çətindir: T.İbrahimovun İ.Nehrəmlini yalan danışmaqda günahlandırması İbrahimovlar arasında incikliyin davam etməsindən irəli gəlir, yoxsa bu da qurama "soyuqluğun" bir parçasıdır?!

***Sənan Mirzə***

02_27 IYUI-QARA.qxd 1/18/2024 10:45 PM Page 4



# Azərbaycandan Fransaya sərt təpki: Bütün “körpülər yandırılır”

***Xəbər verdiyimiz kimi, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Fransa Senatının qətnaməsi ilə əlaqədar bəyanat qəbul edib. Bəyanatda hökumətə Fransa şirkətlərinin ölkəmizdən çıxarılması çağırışı edilir.***

Ümumiyyətlə, son vaxtlar Fransa Azərbaycana qarşı iqtisadi, siyasi, hərbi, demoqrafiq, geosiyasi və mədəniyyət sahələrində çox qərəzli addımlar atır. 2024-cü il yanvarın 17-də Fransa Senatının qəbul etdiyi birtərəfli və əsassız qətnamə də bir daha göstərir ki, Azərbaycan artıq onlara öz siyasi və digər cavablarını verməlidir. Məlumdur ki, siyasi cəhətdən hörmətsizlik nümayiş etdirərək ərazi bütövlüyümüzə, suverenliyimizə qarşı müxtəlif ədalətsiz addımlar atılır. Fransa parlamenti hər iki palatasında ölkəmiz əleyhinə qərarlar qəbul edir. BMT Təhlükəsizlik Şurasının Avropa İttifaqı çərçivəsində müxtəlif tədbirlərini keçirməyə çalışır, burda da Fransanın təşəbbüsü qərəzli və qeyri-obyektiv addım kimi dəyərləndirilir.

Məsələ ilə bağlı “Unikal”a açıqlama verən Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, Fransa senatı növbəti dəfə təxribata əl atıb: “Onlar daha bir provaktiv sənədi qəbul ediblər. Bu, Fransa parlamentində və hokumətində baş verən prosesləri bizə göstərir. Təəssüflər olsun ki, bunlar anti-Azərbaycan, islamofob, irqçi və bizim regionda sülhün qarşısını alan proseslərdir. Fransa bu destruktiv rolda özünü aparıcı oyunçu kimi təqdim edir. Azərbaycan belə cəhdləri çox görüb. Biz 30 il işğal altında qaldığımız halda, Fransa heç bir addım atmadı. Biz özümüz torpaqlarımızı azad etdik. Bu gün Fransa can-fəşanlıq etməklə və bizə qarşı olan sənədləri qəbul etməklə özlərinə daha böyük problemlər yaradırlar.

Hazırda Fransa tərəfi bizim yaydığımız bəyanatı diqqətlə öyrənir. Biz sabah Avropa Şurasına gedirik. Orada da Fransanın destruktiv mövqeyi ilə qarşılaşacağıq. Artıq bizə qarşı bəzi addımlar atmağı planlaşdırıblar.

Qəbul etdiyimiz bəyanatla Azərbaycan hökumətindən Fransaya qarşı sanksiyaların tətbiq olunmasını xahiş etmişik. Nə vaxta qədər onlara yalnız sözlərlə cavab verəcəyik? Burada Azərbaycan vətəndaşlarına qarşı casusluq edən fransalıları aşkar etməliyik. Onların hesablarını dondurmalıyıq”, - deyə o qeyd edib.

Komitə sədri qeyd edib ki, Azərbaycanda Fransanın 100-dən çox şirkəti var: ”Onlardan ən böyüyü “Total Energy” şirkətidir. Biz onlara şərait yaratmışıq ki, Azərbaycanın sərvətindən pul qazansınlar. Həmin şirkət və digər şirkətlər Azərbaycandan çıxarılmalıdır.

Sözlərdən əmələ keçmək lazımdır və biz bunu edəcəyik. Uduzan isə Fransa olacaq. İllər boyu Fransa ilə yaxşı münasibətlər qurmaq istəmişik. Onlar isə xoş münasibəti başa düşmür.

Fransa Mərkəzi Asiya və Qafqaz ölkələri ilə əlaqə qurmaq istəyir. Onlar bilməlidirlər ki, Azərbaycanla münasibətləri yaxşılaşdırmadan bura gələ bilməyəcəklər.

Hazırda Fransada hakimiyyətdə olan siyasi partiya daxili siyasətdə yaşadığı məğlubiyyəti xarici siyasətin hesabına ört-basdır etmək istəyir. Xarici siyasət də məğlubiyyət içərisindədir. Fransada həm daxili siyasət, həm də xarici siyasət iflasa uğrayacaq. Mən buna əminəm.



Fransanın problemi nə Azərbaycan, nə də Ermənistan deyil. Onların problemi ölkənin içərisində aparılan uğursuz, məntiqsiz və Fransız xalqının dəyərlərinə zidd olan siyasətdir”.

Politoloq Elxan Şahinoğlu deyib ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin Fransa ilə bağlı hökumətə çağırışının 4-cü bəndi “Total” da daxil olmaqla, bütün Fransa şirkətlərinin Azərbaycandan çıxarılmasıyla bağlıdır və bu da haqlı çağırışdır: “Hökumət tədbirlər görməlidir. Deməli “Total” Azərbaycanın zəngin “Abşeron” yatağından gəlir əldə edəcək və bu gəlirin bir hissəsi Fransa büdcəsinə yönələcək, bunun qarşılığında da Paris anti-Azərbaycan siyasətini davam etdirəcək. Bu haqsızlıqdır və biz bu zənciri qırmaq məcburiyyətindəyik. Bəziləri deyir ki, “Total” transmilli şirkət olduğundan onu “Abşeron” yatağının istismarı ilə bağlı müqavilədən çıxarmaq olmaz, ölkəmizə qarşı beynəlxalq məhkəməyə müraciət edə bilər. Əlbəttə, bu risq hesablanmalıdır, ancaq buna seyrçi də qala bilmərik, elə etməliyik ki, “Total” yataqdakı payını başqa neft-qaz şirkətinə satsın. Şirkət 2021-ci ildən “TotalEnergies” adlanır. Şirkətin Böyük Britaniyadan tutmuş Səudiyyə Ərəbistanına qədər varlı səhmdarları mövcuddur. Rusiya Ukraynaya qarşı işğalçı müharibəyə başladıqda şirkətin Böyük Britaniyadan olan səhmdarları “Total”a müraciət edərək Rusiya bazarını tərkinə çağırdı. Şirkət rəhbərliyinin açıqlaması belə oldu ki, Rusiyadakı mövcud layihələrdən hələ ki, çıxa bilməzlər, ancaq Rusiyada yeni layihələrdə iştirak etməyəcəklər. Yəni şirkət rəhbərliyi lazım gələndə siyasi reallıqları nəzərə alır. Fransanın anti-Azərbaycan siyasətini davam etdirməsi və rəsmi Bakının Parisə adekvat cavab verməsi də siyasi reallıqdır və şirkət rəhbərliyi və şirkətin səhmdarları bununla hesablaşmalıdırlar. “Total” vaxtilə ona görə “Abşeron” yatağında pay sahibi olub ki, Azərbaycanın Avropaya qaz nəqlində rol almaq istəyib. Ukrayna müharibəsi fonunda Rusiyadan enerji asılılığını azaldan Avropanın Azərbaycan qazına ehtiyacı var. Bu “Total” üçün də faydalıdır. Ancaq Fransanın anti-Azərbaycan siyasəti “Total”ın planlarına da zərbə vurub və şirkət Parisin mövqeyinə təsir etmək üçün heç nə etməyib”.

Qərbi Azərbaycan İcması da Fransa Senatının anti-Azərbaycan qətnaməsi ilə bağlı bəyanat yayıb. İcmadan “Unikal”a verilən məlumata görə, bəyanatda deyilir: ”İrqçi, islamofob, Azərbaycanofob Fransa Senatı daha bir anti-Azərbaycan qətnaməsi qəbul edib. Fransız senatında əyləşən müasir səlibçilər anlamır ki, Azərbaycan öz suveren ərazisində hərbi əməliyyat keçirməyə görə heç kimdən icazə almır və bu mənada Fransa senatı öz yerini bilməlidir. Azərbaycanla bağlı gülünc ittihamlar irəli sürən Fransa senatı qoy “Fransada niyə tez-tez az qala vətəndaş müharibəsi yaşanır”, “Fransa niyə Korsika dilini qadağan edir”, “Fransa ordusunun Niger, Mali, Burkino Fasoda nə işi var”, “Fransa nə üçün özündən min kilometrlərlə uzaqda yerləşən əraziləri hələ də müstəmləkə asılılığında saxlayır” kimi suallara cavab versin. İkinci Dünya Müharibəsində biabırcasına məğlub olduqdan sonra başqalarının mərhəməti ilə BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusuna yiyələnmiş, bir neçə aydır ki bu qurumda Azərbaycan əleyhinə qətnamə qəbul etdirə bilməyən Fransa, görünür özünü Senatın qətnaməsi ilə ovundurur.

Fransa Senatının gözünü etnik və dini nifrət o qədər tutub ki, “Azərbaycanı və onun müttəfiqlərini öz qoşunlarını Ermənistan ərazisindən çıxarmağa” çağırır. Bununla Senat özünü lağlağı obyektinə çevirir. Qarabağ ermənilərinin “öz müqəddəratını təyin etmək hüququ”ndan danışan Fransa qoy gedib Korsikaya, baskalara, Yeni Kaledoniyaya müstəqillik versin. Bir tərəfdən Ermənistanın ərazi bütövlüyünün qorunmasından danışaraq, digər tərəfdən “Dağlıq Qarabağ Respublikası”, “Dağlıq Qarabağın demokratik surətdə seçilmiş liderləri” ifadələrindən istifadə edən Senat əslində özü-özünü ələ salır. AZƏRTAC-ın müxbirinin Yeni Kaledoniyaya girişinə qadağa qoyanlar Azərbaycandan “Dağlıq Qarabağ Respublikasının siyasi liderləri”nin buraxılmasını tələb edir.

Senat “erməni mədəni irsi”nə görə narahat olursa, qoy onda Fransanın əsrlərlə Afrikadan oğurladığı mədəni irs nümunələri ilə məşğul olsun. Fransanın Qarabağa göndərmək istədiyi UNESCO missiyası elə Fransanın özünə göndərilməlidir ki, həmin oğurlanmış irs nümunələrinin əsl sahiblərinə qaytarılmasını təmin etsin. Qarabağ ermənilərinin geriyə qayıdışından danışan səlibçi mentalitetli Fransa Senatı başa düşməlidir ki, qayıdış qarşılıqlı olmalı, Qərbi azərbaycanlıların da Ermənistana qayıdışı təmin edilməlidir. Başa düşürük, Azərbaycanofobiya son illər Fransada gəlirli peşəyə, “qəhrəman”, “alovlu natiq” olmaq üçün əla fürsətə çevrilir. Amma Fransa təkcə İkinci Dünya Müharibəsində, son illərdə Afrikada məğlub olmayıb, Fransa həm də 2020-2023-cü illərdə Cənubi Qafqazda məğlub oldu. Son illər özünü təmiz urvatsız edən rəsmi Paris bununla barışmalı, regiona soxulmaq siyasətindən əl çəkməlidir. Avropa İttifaqını Azərbaycanla münasibətləri yenidən nəzərə keçirməyə çağıran özündən müştəbeh fransız Senatı elə bilir ki, dünya Fransanın, Avropanın ətrafında fırlanır.

Azərbaycan və Ermənistanın dekabrın 7-də birbaşa danışıqlarla əldə etdiyi razılıqlar fonunda fransız Senatının bu təxribatçı addımı siyasi klounluqdur. Fransanın qardaş Türkiyəyə yönəlmiş ittihamlarını da qətiyyətlə rədd edirik. Ermənistan da başa düşməlidir ki, Fransanın heç kimə lazım olmayan silahları ona sırıması, Avropa İttifaqının Ermənistanda baza qurması İrəvana heç bir kömək etməyəcək, əksinə Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olmasına mane olacaq. Fransanın Ermənistana maksimum verə biləcəyi Qarabağ ermənilərinə Parisin fəxri vətəndaşı adı verib baş aldatmaq ola bilər. Ermənistan 1-ci Respublikanın səhvlərindən nəticə çıxarmalıdır.

# İlham Əliyev yeni səfirlərin etimadnamələrini qəbul etdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Syerra-Leone Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alie Badara Kamaranın etimadnaməsini qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Seneqal Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Şeyx Qeyenin, Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark Libbinin etimadnaməsini qəbul edib.

# Təcili yardımın işdən çıxarılan baş həkimi TƏBİB-i məhkəməyə verdi



***Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının sabiq baş həkimi Rauf Nağıyev Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyini (TƏBİB) məhkəməyə verib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, Rauf Nağıyev Bakı İnzibati Məhkəməsinə müraciət edib. O, işə bərpa edilməsini tələb edir.

Xatırladaq ki, R.Nağıyev 2023-cü ilin dekabr ayında TƏBİB-in icraçı direktoru Vüqar Qurbanovun əmri ilə işdən çıxarılmışdı.

***Murad İbrahimli***

# Seçkilərdə "exit-poll" keçirmək istəyən təşkilatların sayı məlum oldu

***Prezident seçkilərində "exit-poll" keçirmək üçün akkreditasiya ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına təqdim edən təşkilatların sayı məlum olub.***

"Unikal" xəbər verir ki, bu barədə MSK sədri Məzahir Pənahov bildirib. O qeyd edib ki, növbədənkənar prezident seçkilərində "exit-poll" keçirmək üçün akkreditasiya ilə əlaqədar MSK-ya 3 təşkilat sənədlərini təqdim edib.

Xatırladaq ki, fevralın 7-də Azərbaycanda Prezident seçkiləri keçiriləcək.

## Etibarsız sayılır

Qasımova Fatimə Elşən qızına 15.09.2022-ci ildə Bakı şəhəri Qara Qareyev Bakı Universitetinin nəzdində Bakı Texniki Kollecində oxuması ilə bağlı verilmiş 8210 nömrəli tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Dini liderlər İlham Əliyevə səs verməyə çağırır

***Azərbaycandakı dini Konfessiyaların rəhbərləri Prezident seçkiləri ilə əlaqədar müraciət yayıb.***



"Unikal" xəbər verir ki, müraciət QMİ-nin növbədənkənar prezident seçkiləri ilə bağlı iclasında elan olunub.

Müraciətdə deyilir: "Uca Yaradanın adı ilə!Biz, milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycan dindarları - müsəlman, xristian və yəhudi dini icma nümayəndələri, ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə - Prezident seçkiləri ilə əlaqədar bir araya gələrək, aşağıdakıları bəyan etməyi öz vətəndaş borcumuz hesab edirik.

Azərbaycan mühüm siyasi hadisə ərəfəsindədir. Vətən müharibəsində tarixi ədaləti və ərazi bütövlüyünü, Xankəndi zəfəri ilə suverenliyini tam bərpa etmiş Azərbaycan xalqı yeni siyasi reallıqlar müstəvisində 7 fevral 2024-cü ildə növbədənkənar prezident seçkilərinə hazırlaşır. Bu seçkilər müstəqillik tariximizdə bütün Azərbaycan Respublikası ərazisində həyata keçiriləcək ilk seçki olaraq xüsusi önəm, tarixi dəyər kəsb edir. Xalqımıza hamılıqla növbəti seçkilərə qatılmaq və müstəqil iradə ortaya qoymaq fürsəti verilmişdir.

Ulu Öndərin vəsiyyətlərini, Azərbaycan xalqına verdiyi vədləri əsl övlad qeyrətiylə yerinə yetirən möhtərəm Prezidentimiz İlham Əliyevin xalqımıza bəxş etdiyi tarixi zəfərlərə görə hər bir azərbaycanlının qəlbində özəl yeri vardır. Həqiqətən, Vətəni ucaldanların, tarix yaradanların, xilaskarlıq missiyasını şərəflə yerinə yetirən liderlərin məqamı millətin qəlbidir. Azərbaycanın ən yeni tarixinin memarı, qalib sərkərdə, ölkəmizi uzun sürən işğal və separatizm bəlasından xilas edən müzəffər Ali Baş Komandanımız hər bir azərbaycanlının sonsuz məhəbbət, dərin etimad və minnətdarlıq borcunu haqq etmişdir. Xalqımız Uca Allahın köməyi ilə

Ölkədə fəaliyyət göstərən bütün dini konfessiya və icmalara dövlət büdcəsindən hər il milyonlarla manat dəyərində maddi vəsait ayrılır, din xadimlərinin maddi təminatının yaxşılaşdırılması üçün yardımlar edilir.

Prezident İlham Əliyevin dini camea ilə mütəmadi görüşləri, ibadət yerlərinin açılışında şəxsən iştirakı, əlamətdar bayramlar münasibəti ilə dini icmalara rəsmi təbrik məktubları ünvanlaması, tanınmış din xadimlərinin yüksək dövlət mükafatlarına layiq görülməsi ölkə başçısının cəmiyyətdə dinin roluna, sağlam mənəvi-əxlaqi dəyərlərin təbliğinə və təşviqinə xüsusi diqqət və qayğısının bariz nümunəsidir.

Səmavi dinlər insanın azad seçim hüququnu təsbit edir, rəhbər, öndər, ixtiyar sahibinin seçiminə böyük əhəmiyyət verir. Uca Yaradanın Zəbur, Tövrat, İncil, Quran kitablarında təlqin olunan dəyərlərlə dünyəvi həyatımıza nəzər salsaq, görərik ki, yaşadığı cəmiyyətin inkişaf və tərəqqisini istəyən hər bir insan haqqı nahaqdan seçməyi bacarmalı, həmişə Haqqın və Ədalətin yanında olmalıdır. Müqəddəs kitablarımızda Ulu Tanrı bizə əta etdiyi əmanətləri haqq sahiblərinə, layiq olanlara verməyi əmr edir. Din dünyəvi dövlətdə siyasətdən ayrı olsa da, dindar şəxs ölkəsinin vətəndaşı kimi taleyüklü məsələlərdə yaxından iştirak etməli, əsl vətəndaş fəallığı göstərməli, düzgün seçim edərək öz səsini ən layiqli namizədə verməlidir.

Ölkəmizin ərazi bütövlüyünü bərpa edən, Qarabağ probleminə son qoyan, milli dəyərlərimizə və mənəvi irsimizə sahib çıxan, Birinci və İkinci Qarabağ müharibələrinin, 20 Yanvar və Xocalı şəhidlərinin qanını yerdə qoymayan, düşmən üzərində möhtəşəm tarixi Zəfərlə onların müqəddəs ruhlarını sevindirən dəmir yumruqlu qalib sərkərdə, müdrik dövlət rəhbəri İlham Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətləri göz önündədir. Hər birinizi Azərbaycanımız və xalqımız üçün önəmli mahiyyət daşıyan növbədənkənar prezident seçkilərində fəal iştiraka və gələcəyimiz naminə doğru seçim etməyə, ən layiqli namizəd - dövlət başçımız İlham Əliyev cənablarına səs verməyə çağırırıq.

Uca Yaradanın Lütf və Mərhəməti hər zaman Azərbaycan xalqı və dövləti üzərində bərqərar olsun! AMİN!"-müraciətdə deyilir.

**Müraciəti aşağıdakılar imzalayıb:**

**Şeyxülislam Allahşükür PAŞAZADƏ**
**Qafqaz Müsəlmanları İdarəsinin sədri**
**Milix YEVDAYEV**
**Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri**
**Arximandrit Aleksiy NİKONOROV**
**Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi**
**Aleksandr ŞAROVSKİ**
**Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri**
**Robert MOBİLİ**
**Alban-udi Xristian Dini İcmasının sədri**

# Əhali arasında yayılan xəstəlik nədir? - TƏBİB-dən açıqlama

***Hər il olduğu kimi, payız-qış mövsümündə havaların soyuması ilə əlaqədar tənəffüs yolu infeksiyalarında artım müşahidə edilir.***



Bu barədə "Unikal"a TƏBİB-dən məlumat verilib.

Qeyd edilib ki, son günlərdə insanlar arasında boğaz qıcıqlanması, boğaz ağrısı, yüksək olmayan temperatur, oynaqlarda ağrı, burun tutulması simptomları ilə müşayiət olunan tənəffüs yolu infeksiyalarından şikayətlər artıb.

"Hətta bəzi xəstələrdə iybilmə, dadbilmə duyğusunun itirilməsi də müşahidə olunur. Xəstələr bunun COVID-19 virusunun yeni variantlarından biri olduğunu düşünərək təşviş keçirirlər, lakin buna heç bir əsas yoxdur. Tənəffüs yolu infeksiyalarının (qrip, kəskin respirator xəstəliklər və s.) bəzilərində iybilmə və dadbilmə duyğusunun itirilməsi şikayətləri müşahidə edilə bilər. Mövsümlə əlaqədar sadaladığımız şikayətlərlə həkimə müraciət sayında artım olması, hər zamankı kimi, gözləniləndir. Payız-qış fəsli daxil olandan bəri, TƏBİB respirator infeksiyaların artacağı ilə bağlı dəfələrlə əhaliyə çağırışlar edib, respirator gigiyena qaydalarına əməl etmələri tövsiyə olunub, qrip vaksinlərinin tətbiqi həyata keçirilib və keçirilməkdə davam edir", - deyə əlavə edilib.

## Elektron Təhlükəsizlik Xidmətindən kiberdələduzlarla bağlı xəbərdarlıq

***Kiberdələduzlar tərəfindən ani mesajlaşma tətbiqləri vasitəsilə vətəndaşlara qarşı dələduzluq həyata keçirilir.***

"Unikal" xəbər verir ki, bu barədə Elektron Təhlükəsizlik Xidməti məlumat yayıb.

Belə ki, vətəndaşlara müxtəlif tapşırıqları yerinə yetirərək qazanc əldə edilməsi vəd edilir.

Elektron Təhlükəsizlik Xidməti vətəndaşlara tanımadıqları şəxslərdən bu cür təkliflər gəldikdə diqqətli olmağı, şübhəli keçidlər vasitəsilə bank kartı və digər fərdi məlumatlarını qarşı tərəfə ötürməməyi, hər hansı şirkət və ya qurum adından gələn iş təklifləri bağlı birbaşa şirkətin və qurumun özündən bu məlumatları dəqiqləşdirməyi tövsiyə edib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5[A]
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur
Sifariş 252.
Tiraj:2000

02_27 IYUl-QARA.qxd 1/18/2024 10:45 PM Page 6



# Milli Məclis Fransa Senatının qətnaməsinə etiraz etdi - Bəyanat

***Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Fransa Senatının qətnaməsi ilə əlaqədar Bəyanat qəbul edib.***

"Unikal" Bəyanatı təqdim edir: "Fransada fəaliyyət göstərən erməni lobbisi rəhbərlərinin və onların təsiri altında olan Fransa rəsmilərinin və siyasətçilərinin təhriki ilə Fransa Respublikası Senatının 2024-cü il yanvarın 17-də qəbul etdiyi qərəzli, birtərəfli və əsassız qətnamə ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi aşağıdakıları bəyan edir:

- Son illərdə Fransa Respublikasının siyasi dairələri, o cümlədən Senatı və Milli Assambleyası birbaşa Yelisey Sarayından alınmış təlimat əsasında açıq irqçi, azərbaycanofob və islamofob fəaliyyətini daha da intensivləşdirmişdir və beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq hörmətsizlik nümayiş etdirərək Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı ədalətsiz addımlar atmaqda davam edir;

- Fransa hökumətinin apardığı anti-Azərbaycan siyasəti, o cümlədən Fransa Parlamentinin hər iki palatasında ölkəmiz əleyhinə indiyədək qəbul edilmiş qətnamələr ucbatından iki ölkə arasında münasibətlər tarixinin ən aşağı səviyyəsindədir və mahiyyətcə dayandırılmış hesab edilə bilər;

- Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə hörmət edilməsi Fransa tərəfinin həm çoxtərəfli, həm də ikitərəfli beynəlxalq öhdəliyi olsa da, Fransa istər ölkə daxilində, istərsə də beynəlxalq təşkilatlarda təşəbbüsçüsü olduğu qətnamə layihələrində ölkəmizin ərazi bütövlüyünü və suverenliyini sual altına qoymuşdur;

- BMT Təhlükəsizlik Şurası və Avropa İttifaqı çərçivəsində Fransanın irəli sürdüyü Azərbaycan əleyhinə çoxsaylı qərar və qətnamə layihələrinin qəbul olunmaması Azərbaycan dövlətinin uğurlu xarici siyasəti ilə yanaşı, Fransanın təşəbbüslərinin bu təşkilatlarda haqlı olaraq qərəzli və qeyri-obyektiv addımlar kimi qiymətləndirilməsi ilə bağlıdır;

- Fransanın Azərbaycana qarşı qeyri-qanuni fəaliyyətinin bir istiqamətini də uğursuz kəşfiyyat işi təşkil etmişdir. Bu ölkənin Bakıdakı səfirliyinin iki əməkdaşı diplomatik statuslarına uyğun olmayan, "Diplomatik əlaqələr haqqında" 1961-ci il tarixli Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətə görə Azərbaycan hökuməti tərəfindən "persona non grata" (arzuolunmaz şəxs) elan olunaraq ölkə ərazisindən çıxarılmışdır;

- Fransa hökumətinin, eləcə də Senatının və Milli Assambleyasının destruktiv və təxribatçı addımları Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin həyata keçirilməsinin qarşısını almağa və Cənubi Qafqaz regionunda vəziyyəti gərginləşdirməyə xidmət edir;

- Son aylar Ermənistan-Azərbaycan şərti sərhədində tam sakitliyin hökm sürməsi və heç bir münaqişəli halın baş verməməsi, görünür, Fransa tərəfini narahat edir. Fransa müxtəlif vasitələrə əl ataraq Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması istiqamətində görülən işlərə maneçilik törətməyə çalışır;

- Fransa Ermənistana silah-sursat satmaqla onun Azərbaycanla münasibətlərinin normallaşdırılmasına zərbə vurur, Ermənistandakı revanşist qüvvələri yeni müharibəyə həvəsləndirir;

- Cənubi Qafqaz regionunun və bütövlükdə Avropanın təhlükəsizliyi üçün təhdid törətmiş, Azərbaycanın qətiyyətli səyləri ilə artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan münaqişəsinin 30 ilə yaxın müddətdə həll edilməməsinin əsas səbəblərindən biri də danışıqlar prosesində beynəlxalq vasitəçi rolunu oynamış bəzi dövlətlərin, xüsusən Fransanın Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına əsaslanan status-kvonu qoruyub saxlamağa çalışması olmuşdur;

- "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasını və onun iki protokolunu, UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il 16 noyabr tarixli Konvensiyasını və "Mədəni irsin qəsdən dağıdılması haqqında" 2003-cü il 17 oktyabr tarixli Bəyannaməsini xatırladan Fransa Senatı Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlamış Ermənistanın həmin konvensiyaları və Bəyannaməni kobudcasına pozduğunu bilə-bilə heç zaman bu ölkəni beynəlxalq öhdəliklərinə əməl etməyə çağırmamışdır;

- İndiki Ermənistan ərazisində yaşamış yüz minlərlə azərbaycanlının ata-baba yurdlarından zorla kütləvi surətdə qovulmasına səssiz qalan və onların geri qayıdış hüququnun bərpasına çağırış etməyən Fransa yenə də ikili standartlar siyasətinə sadiq qalaraq ermənilərin Azərbaycan ərazisində yerləşdirilməsi üçün hər fürsətdə canfəşanlıq edir;

- Mədəni irsin qorunmasından dəm vuran Fransa qadın azadlığının və hüquqlarının tərənnümçüsü kimi tanınan görkəmli şairə, rəssam, maarifçi və xeyriyyəçi Xurşidbanu Natəvanın Evian-le-Ben şəhərində heykəlinin təhqir olunmasının qarşısını almamış, bu rəzaləti törədənləri hələ də tapıb cəzalandırmamışdır;

- Fransa "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinin müvəqqəti tədbirlər barədə qərarlarını məqsədli şəkildə təhrif edir. Fransanın iddialarının əksinə olaraq, Məhkəmə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edən, Ermənistanın Azərbaycanın Qarabağ üzərində beynəlxalq səviyyədə tanınmış suverenliyini şübhə altına alan tələbini rədd edən qərar qəbul etmiş, Azərbaycanın bütün hərbi və hüquq mühafizə orqanlarının şəxsi heyətinin Qarabağ bölgəsindən çıxarılması ilə bağlı əsassız tələbini rədd etmişdir. Həmçinin Beynəlxalq Ədalət Məhkəməsi Laçın nəzarət-buraxılış məntəqəsinin Laçın yolu boyunca hərəkətə mane olduğuna dair Ermənistanın iddiasını qəbul etməmişdir;

- Fransa Senatının qətnaməsində və Fransa rəsmilərinin mütəmadi açıqlamalarında iddia edildiyinin əksinə olaraq, hətta Avropa Şurasının İnsan hüquqları üzrə komissarının Ermənistana və Azərbaycana səfərindən sonra hazırladığı hesabatda da qeyd edilir ki, Azərbaycan hakimiyyəti tərəfindən heç bir güc tətbiq olunmadan, Azərbaycanın Qarabağ bölgəsini tərk etmək yerli ermənilərin öz könüllü qərarı olmuşdur;

- Azərbaycana qarşı açıq düşmənçilik siyasəti yürüdən Fransadan fərqli olaraq, dünyanın əksər ölkələri, eləcə də müvafiq beynəlxalq təşkilatlar Azərbaycanın qarşılaşdığı "mina terroru"nu pisləyən açıqlamalar yaymışlar. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minalarla kütləvi çirklənmə ilə bağlı kəskin problem və bunun ərazilərin reabilitasiyası, eləcə də keçmiş məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtması prosesi üçün yaratdığı əngəllər, habelə onların sağlamlığı və həyatı üçün törətdiyi ciddi təhlükələr beynəlxalq hesabatlarda tanınmışdır;

- Dünyanın müxtəlif bölgələrində 50-dən artıq dövlətin ərazisini işğal etmiş, sərvətlərini talamış, xalqlarını uzun illər əsarətdə saxlamış Fransanın törətdiyi vəhşiliklər, habelə insanlıq əleyhinə cinayətlər, eləcə də müharibə cinayətləri bəşər tarixinin qara səhifələridir. Müstəmləkə illərində Fransa silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini kütləvi surətdə qətlə yetirmişdir. Törədilmiş soyqırımı cinayətləri Fransanın siyasi tarixində silinməsi mümkün olmayan ləkədir;

- 1994-cü ildə Fransa Ruandada "təhlükəsiz zona yaratmaq" adı altında hərbi əməliyyat keçirmişdir. Nəticədə Fransa silahlı qüvvələri onlara qoşulan yerli münaqişə tərəfinin iştirakı ilə bu ölkədə tutsi qəbiləsinin 800 mindən çox üzvünü qətlə yetirmişlər. "Ruandada tutsi qəbiləsinin soyqırımında Fransanın roluna dair hesabata məsul komissiya" tərəfindən 2021-ci il martın 26-da Fransa dövlətinin başçısına təqdim edilmiş sənəddə Fransanın qətliamda məsuliyyəti qeyd olunmuşdur;




- 2021-ci il martın 30-da Birləşmiş Millətlər Təşkilatının Malidə sabitləşmə üzrə çoxölçülü kompleks missiyasının (MİNUSMA) Müdafiə və insan hüquqları bölməsinin dərc etdiyi hesabatda Fransa hərbçilərinin Malinin Bounti kəndi yaxınlığında həyata keçirdiyi hava hücumu nəticəsində 19 mülki şəxsin həlak olduğu qeyd edilmişdir;

- Fransanı törətdiyi insanlığa qarşı cinayətləri və müharibə cinayətlərini tanımağa, vəhşiliklər törətdiyi xalqlardan üzr istəməyə, həmçinin təbii sərvətlərini talan etdiyi dövlətlərə kompensasiya ödəməyə çağırırıq;

- Fransa parlamentarilərini öz hökumətini ölkədə artmaqda davam edən irqçi, antisemit, türkofob və islamofob təzahürlərin qarşısını almaq üçün siyasi iradə nümayiş etdirməyə və bu halların qarşısını almağa yönələn qətnamə qəbul etməyə dəvət edirik.

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi yuxarıda şərh olunanları, xüsusən Fransanın davamlı anti-Azərbaycan fəaliyyətini nəzərə alaraq, Azərbaycan Respublikası Hökumətinə aşağıdakı tədbirlərin görülməsi ilə bağlı çağırış edir:

1. Fransaya qarşı sanksiyalar tətbiq edilsin.

2. Fransa rəsmilərinin Azərbaycanda hər hansı aktivləri aşkar edildikdə dondurulsun.

3. Fransa ilə bütün iqtisadi əlaqələr dayandırılsın.

4. Total da daxil olmaqla, bütün Fransa şirkətləri Azərbaycandan çıxarılsın.

5. Fransa şirkətlərinin Azərbaycan dövlətinin sifarişi ilə həyata keçirilən hər hansı layihədə iştirakına yol verilməsin.

6. Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Kanaky, Maohi Nui və Korsikanın müstəqilliyinin tanınması istiqamətində addımlar atsın".



## “Bakı sülhə hazırdır, İrəvan isə...” - Lavrov

***”Bakı Rusiya ərazisində İrəvanla sülh sazişi imzalamağa hazırdır, İrəvanın mövqeyi məlum deyil”.***

”Unikal” xəbər verir ki, bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov yanvarın 18-də keçirdiyi mətbuat konfransında bildirib.

XİN rəhbərinin sözlərinə görə, Qərb tərəfdaşları Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin yalnız onların ərazisində imzalanmasını istəyirlər: ”Bu da faktdır ki, Azərbaycan faktiki olaraq münaqişənin dayandırılması və bütün məsələlərin həlli üçün bütöv əməkdaşlıq sisteminin qurulması səylərinin başladığı Rusiya ərazisində bunu imzalamağa hazırdır. Ermənistanın paytaxtına çoxdan müvafiq impulslar göndərilsə də, İrəvanın buna nə dərəcədə hazır olduğunu bilmirəm”.

Lavrov həmçinin qeyd edib ki, Ermənistan və Azərbaycan ərazisində əlaqələr və marşrutlar açılacağı təqdirdə, ölkələr suverenliyi və ədaləti tam qoruyacaq: ”Son günlər Ermənistan və Azərbaycan liderləri ictimai şərhlərində Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqə yaratmaq mövzusuna toxunublar. Üstəlik, baş nazir Paşinyan haradasa Ermənistanda Zəngəzur dəhlizinin qəti əleyhinə olduqlarını bildirib. Putin, Əliyev və Paşinyanın əldə etdiyi razılaşmalar çərçivəsində ”Zəngəzur dəhlizi” heç vaxt xatırlanmayıb”.

Diplomat Ermənistanla Azərbaycan arasında münasibətlərin nizamlanmasında irəliləyişin olmamasını Qərbdən məsləhət alan İrəvanın mövqeyi ilə əlaqələndirib: ”Mən səbəbi İrəvanın mövqeyində görürəm. İrəvana kimin məsləhət verdiyini bilmirəm. Amma biz gördük ki, Avropa İttifaqı, Fransa, Almaniya, ABŞ dərhal anladı ki, Rusiya-Ermənistan-Azərbaycan prosesi öz nəticəsini verir. Həm marşrutların açılması, həm sərhədlərin demarkasiyası, həm də sülh müqaviləsinin hazırlanması zamanı onlar dərhal dəvət olmadan bu proseslərə qarışmağa başlayıblar”.

***Ağarza Elçinoğlu***

## "Din bayrağı altında mürtəce ideyalarını yeridənlər var" - Fəzail İbrahimli

***Milli Məclisdə ölkədəki dini vəziyyətlə bağlı dinləmə keçirilməsi təklif edilib.***

”Unikal” xəbər verir ki, bu təkliflə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin bu gün keçirilən iclasında deputat Ceyhun Məmmədov çıxış edib.

Deputat dini sahədə müəyyən proseslərin getdiyini nəzərə alaraq təklifin gündəmdə qalmasını istəyib.

Komitə sədri Fəzail İbrahimli deputatın bu təklifinin nəzərə alınacağını bildirib. O qeyd edib ki, din bayrağı altında mürtəce ideyalarını yeridənlər var.

***Anar Kəlbiyev***

# “Bu, onlar tərəfindən irəli sürülən qeyri-ciddi təkliflərdir”

### Arzu Nağıyev: “Delimitasiya komissiyası işləyəcək və qərarlar qəbul edəcək. Azərbaycanın daxili və xarici siyasətinə uyğun olaraq istənilən xəritəyə, sənədə istinad edəndə də bu məsələ ölkəmizin xeyrinə həll olunacaq”

***Milli Məclisin deputatı Arzu Nağıyev “Unikal”a müsahibə verib. O, “Hərbi qulluqçuların statusu haqqında” qanuna ediləcək dəyişikliklərin əhəmiyyətindən, Ermənistanın silahlanmasının məqsədindən, işğalda olan 8 kəndin nə zaman qaytarıla biləcəyindən və Müdafiə Nazirliyindəki son kadr islahatlarından danışıb.***

***-Arzu müəllim, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclasında qeyd olundu ki, “Hərbi qulluqçuların statusu haqqında” qanun yenidən işlənilir. Dəyişiklik layihəsi rəy verilməsi üçün Müdafiə Nazirliyinə göndərilib. Adıçəkilən qanun layihəsindəki yeni dəyişikliklərdə nələrin olacağı gözlənilir?***

-Məlumdur ki, “Hərbi qulluqçuların statusu haqqında” qanunda əsas maddələr hərbi qulluqçuların hüquqi statusu, hərbi qulluqçular tərəfindən hərbi xidmət vəzifələrinin icrası, hərbi qulluqçuların hüquq və vəzifələri, eyni zamanda mənzil və fərdi yaşayış evinin tikintisi üçün torpaq sahəsinin təmin olunması hüququ və s. məsələlərdir. Həmçinin, təqaüddən sonra da sosial müdafiə hüququ və digər məsələlər tam şəkildə öz əksini tapıb. Mütəmadi olaraq burada müəyyən imtiyazlar tətbiq olunur. Hərbi qulluqçuların yüksək səviyyədə təminatı mühüm əhəmiyyət kəsb edir. Bu işlər, təqaüdlə, istərsə də sosial məsələlərlə bağlıdır. Mütəmadi olaraq qanuna yenidən baxılır, dəyişdirilir və hər dəfə müsbət istiqamətdə addımlar atılır. 2024-cü ildə də bu tendensiya davam etdiriləcək. Ali Baş Komandan İlham Əliyev dəfələrlə qeyd edib ki, ordu Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün mühüm qarantıdır. Bu baxımdan müsbət dəyişikliklərin şahidi olacağıq.



***-Bu günlərdə mətbuatda yer alan xəbərlərə əsasən, Rusiya Ermənistana silah göndərib. Hərbi təyinatlı məhsullar Rusiya ilə əvvəllər imzalanmış müqavilə çərçivəsində verilib. Məlum olduğu kimi, Ermənistan Fransa və Hindistandan da silahlar alır. Bu ölkənin silahlanmaqda məqsədi nədir?***

-Rusiya və Ermənistan arasında müvafiq müqavilələr var. Bir vaxtlar ortada 400 milyon dollarlıq müqavilə məsələsi var idi. Həmçinin, bunun 1 milyard olacağı və kredit vasitəsilə ödəniləcəyi məsələsi də qeyd olunurdu. Ukrayna ilə müharibədə olduğu üçün Rusiyanın özünə də silah lazım idi. Ona görə də müəyyən müqavilələr gecikdi və Rusiya silahların verilməsini dayandırdı. Ermənistan isə verdiyi vəsaiti geri istəyirdi və bu alınmırdı. Son vaxtlar Hindistandan silah alınması Rusiyanı bu problemlərin həlli istiqamətində addım atmağa məcbur etdi. Hindistan bu bazara girməkdə israrlı olduğu üçün Rusiya müəyyən qədər müqavilənin icrasını təmin etmək istəyir. Erməni deputatların açıqlaması göstərdi ki, əsas məqam bundan ibarətdir. Ermənistan və Rusiya arasında daim silah alqı-satqısına dair müqavilə olub. Bu o demək deyil ki, onu silahlandırırlar. Ermənistanın kim tərəfindən silahlanması bizim üçün o qədər də əhəmiyyət kəsb etmir. Bizim o silahlara qarşı istifadə ediləcək kifayət qədər imkanlarımız var. Biz bunu daxili və xarici siyasətimizdə prioritet istiqamət kimi qəbul etmişik.

***-Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində ölkəmizin hələ də işğal altında qalan kəndləri barədə danışıb. Dövlət başçısı işğal altında qalan səkkiz kəndin məsələsinin daim gündəlikdə olduğunu bildirib. 2024-cü ildə bu 8 kəndin qaytarılması məsələsi həll oluna bilərmi?***

-Ermənistanın sülh sazişinin imzalanmasında problem kimi qabartdığı bir məsələ də anklavlarla bağlıdır. Məlumdur ki, söhbət Qazaxın 7-i, Naxçıvanın bir kəndindən gedir. Bu kontekstdə ermənilər ciddi cəhdlə çalışırlar ki, sözü gedən ərazilərin çox hissəsini anklav adlandırsınlar. Bunların 4-ü birmənalı olaraq anklav deyil, qeyd-şərtsiz Azərbaycan ərazisidir. Anklav dedikdə isə örüş sahəsi kimi verilmiş, icarəyə götürülmüş əraziləri sənədləşdirərək müəyyən xəritələrə istinad etməyə çalışırlar. Bunlar problem yaradan məsələlərdir. Bir neçə kəndi doğurdan da anklav sayırlarsa, orada ayrı-ayrı komissiyaların yaradılması və bu istiqamətdə addımların atılması mümkündür. Onlar çalışır ki, qoşunlar gözgüvari şəkildə indi dayandıqları mövqelərdən çəkilsin. Burada əgər sərhəd yoxdursa, hansı çəkilmədən söhbət gedə bilər. Çünki xəritələrə uyğun olaraq yüksəkliklərin hamısı Azərbaycan ərazisidir. Onların məqsədi odur ki, qoşunlar çəkildiyi zaman həmin yüksəkliklər boş qalsın. Bu, onlar tərəfindən irəli sürülən qeyri-ciddi təkliflərdir. Delimitasiya komissiyası işləyəcək və qərarlar qəbul edəcək. Azərbaycanın daxili və xarici siyasətinə uyğun olaraq istənilən xəritəyə, sənədə istinad edəndə də bu məsələ ölkəmizin xeyrinə həll olunacaq.

***-Bu günlərdə Azərbaycan Ordusunun bir neçə vəzifəli şəxsi ehtiyata və istefaya göndərilib. Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrin komandanı, general-leytenant Hikmət Mirzəyev müdafiə nazirinin müavini, Quru Qoşunların komandanı təyin olunub. Bu dəyişiklikdən sonra Quru Qoşunlarında hansı yeniliklər gözlənilir?***

-Burada əsas məqam mütəmadi olaraq peşəkarların yüksək vəzifəyə təyin edilməsidir. Azərbaycanda həyata keçirilən islahatların bir istiqaməti də budur. Bu təyinatlar dövlətin güc strukturlarında, hərbidə kadr islahatlarının davamlı olaraq aparıldığına, vəzifəsinin öhdəsindən layiqincə gələn peşəkar kadrların irəli çəkilməsinə daha bir nümunədir. Dövlətimizə qarşı istənilən təhdidin qarşısını almaq məqsədilə ölkə rəhbərliyi səviyyəsində daim mühüm qərarlar verilir, bu çərçivədə yeni təyinatlar baş verir. Peşəkar kadr islahatına həmişə ehtiyac var və bu istiqamətdə işlər gedir. Müasir texnika və texnologiyalara malik Azərbaycan Ordusunda kadrlara ehtiyac var və bu effekt verər. Döyüş ruhunu tənzimləyən, vəzifə və tapşırıqları layiqincə yerinə yetirən ali zabit heyəti üçün yol açıqdır. Belə ki, onlar daha yüksək vəzifələrə təyinat alırlar. Bu istiqamətdə işlər uğurla gedir. Ali Baş Komandan bunu yüksək səviyyədə həyata keçirir. Son təyinatlar da göstərdi ki, peşəkar, xalq və dövlətçilik qarşısında layiqli xidməti olan, işini bacaran zabitlər əsas vəzifələrə təyin olunurlar. Əsas hədəfimiz peşəkar zabitlərin bacarığından istifadə edib ordumuzu və müdafiə qüdrətimizi daha da gücləndirməkdir.

***Anar Kəlbiyev***

# Bakının tıxac dərdinin arxasındakı məmur ziddiyyətləri

## Paytaxtı cənginə alan "propka"nın əsl səbəbi nə əhalinin sıxlığı, nə də maşınların çoxluğu deyilmiş... - İlginc təfərrüatlar!

***Bakı sakinləri həyatlarının 1,5 ilini tıxaclarda keçirir. Bunu Milli Məclisin deputatı İltizam Yusifov Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin yanvarın 17-də keçirilən iclasında deyib.***

Onun sözlərinə görə, Bakı dünyada ən çox tıxac problemi olan şəhərlərdən biridir.

Deputat hesablama aparıb: "Əgər bir insanın səhər 10-15, axşam da 10-15 dəqiqə tıxacda qaldığını nəzərə alsaq, bu, ildə 7,6 gün edir. Azərbaycanda orta ömür həddinin 73 il olduğunu nəzərə alsaq, belə məlum olur ki, Bakıda yaşayan bir nəfər ömrünün 1,5 ilini tıxaclarda keçirir. Bu, həddindən artıq böyük rəqəmdir".



Deputat onu da vurğulayıb ki, dünyanın ən tıxaclı şəhərlərində - İstanbul və Moskvada ildə tıxacda qalmaq nisbəti 5 gündən bir az çoxdur.

Qeyd edək ki, son aylarda xüsusilə sosial şəbəkələrdə paytaxt sakinlərinin tıxaclardan şikayətləri daha da artıb. Bu barədə paylaşımlarda Bakıda tıxac səbəbindən yaşamağın dözülməzliyindən danışılır. Bildirilir ki, bir müddət əvvələdək əgər günün müəyyən vaxtlarında, pik saatlarda tıxaclar müşahidə olunurdusa, indi günün istənilən vaxtı oxşar vəziyyətlə qarşılaşmaq olar. Vətəndaşlar həmçinin aidiyyatı qurumların bu problemin öhdəsindən gəlməkdə tamamilə əlacsızlıq nümayiş etdirmələrindən də giley-güzarlarını dilə gətirirlər.

Ötən ay isə nəqliyyat sahəsi üzrə ekspert Rauf Ağamirzəyev mövzu ilə bağlı "Bizim.Media"-ya açıqlamasında maraqlı məqama toxunmuşdu. Onun sözlərinə görə, problem əhalinin çoxluğunda deyil, insanların hərəkət etdiyi yolların planlamasındadır. Şəhərin əhalisi indikindən də çox ola bilər, amma piyada mobilliyinin təmin edilməsi üçün təkmilləşmiş şəhər infrastrukturuna çox böyük ehtiyac var. Sitat: "Velosiped zolaqlarının daha rahat, təhlükəsiz təşkili, səkilərin bariyersiz olması, ayrılmış avtobus zolaqları, şaxələnmiş metro şəbəkəsi, şəhərətrafı elektrik qatarları, yüngülreysli dəmiryol sistemi, tramvaylar, trolleybuslar, elektrobuslar və s. kimi müxtəlif seçimlərlə ictimai nəqliyyatın təklif olunduğu şəhərdə tıxac probleminin həllində mühüm addım atmış olarıq. Beləliklə, fərqli bir şəhərə sahib ola bilərik".

Ekspertin toxunduğu ən maraqlı məqam isə aidiyyatı qurumlar arasında koordinasiya ilə bağlı olmuşdu: "Bir qurum nəyisə düzəltmək istədiyi halda digər qurum tam əksini edirsə, burada ciddi suallar yaranır. Şəhərin tam mərkəzində velozolaq təşkil edilir, digər hissəsində isə səkini kəsib parklanma yeri kimi istifadəyə verirlər. Bu da qurumlar arasında ziddiyyəti açıq ortaya qoyur. Bir qurum digərinin işini korlaya bilir. Problem məhz budur. İnsanlarda problem yoxdur. İnsan üçün şərait yaratdıqdan sonra o, özü qərar verəcək".

Yeri gəlmişkən, nəqliyyat sahəsi üzrə başqa bir ekspert - Elməddin Muradlı da bir müddət əvvəl Bakı şəhərində sıxlığın yaranmasının əsas səbəbinin aidiyyatı qurumların gördüyü işlərin səmərəsiz olması ilə əlaqələndirmişdi. Onun sözlərinə görə, düzgün görülməyən işlər artıq mənfi effektini verməkdədir. Sitat: "Bunun səbəbi bəzən avtomobilləşmənin sürətlə getməsi ilə əlaqələndirilir. Lakin belə deyil. Dünya təcrübəsinə nəzər salsaq və Cənubi Qafqaz regionu ilə müqayisə etsək, Azərbaycan hər 100 min nəfərə düşən avtomobil sayına görə aşağı göstəriciyə malikdir. Bu problemlərin ortaya çıxmasının avtomobilləşmə ilə heç bir əlaqəsi yoxdur. Problemin kökündə yol hərəkəti təhlükəsizliyinin düzgün tənzimlənməməsi durur. Yollarımız düzgün qurulmayıb, yol şəbəkəsi planlı şəkildə inkişaf etdirilmir. Hamısı bir-birilə zəncirvari bağlıdır".

2021-ci ildə isə bu mövzu ilə bağlı ekspert avtosfer.az saytında belə yazıb: " Azərbaycanda tıxac o vaxt azalacaq ki, məmurların gözü doyacaq və nəqliyyata ayrılan pulları basıb yemədən bu sahədə ciddi işlər görəcəklər.

Azərbaycanda yolu tikən də məmurdur, yolların kənarında özbaşına tikililər tikib yolu daraldanlar da... Yəni, məmur məmurun qarşısını kəsə bilmir, nəticədə məmurlar birləşib yol təsərrüfatını bərbad hala salırlar.

Yeyirlər, dağıdırlar, göz yumurlar, aləm dəyir bir-birinə, sonra da başlayırlar ki, tıxaca səbəb maşınların çoxalmasıdır. Heç olmasa gedin İsveçrə və Lixtenşteyn təcrübəsini öyrənin, sonra danışın!

Xatırladaq ki, Bakının tıxac problemi dövləti də ciddi narahat edir. Elə buna görə də ötən il məsələ ilə bağlı Prezident səviyyəsində qərar verilib. Belə ki, oktyabrın 25-də Prezident İlham Əliyev Bakıda nəqliyyat sıxlığının azaldılması ilə bağlı sərəncam imzalayıb. "Böyükşor-Pirşağı avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" adlanan Sərəncamda Bakı şəhərində nəqliyyat sıxlığının azaldılması məqsədilə uzunluğu 12,7 km olan altı hərəkət zolaqlı Böyükşor-Pirşağı avtomobil yolunun layihələndirilməsi və tikintisi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 4,7 milyon (dörd milyon yeddi yüz min) manat ayrılıb. Maliyyə Nazirliyinə bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək, İqtisadiyyat Nazirliyinə həmin maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutmaq, Nazirlər Kabinetinə isə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Ümid edək ki, aidiyyatı qurumlar sərəncamın icrasında üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirəcəklər və məmur mənafeləri, məmur maraqları Bakının ən önəmli problemlərindən birinin həlli istiqamətində konkret işlərin görülməsinə mane olmayacaq...

***Sənan Mirzə***

## "Regionlarda iş yerlərinin açılmasına diqqət yönəltməliyik" - Komitə sədri



***"Azərbaycanda kifayət qədər iş yerləri olsa da koordinasiya məsələsində ciddi problemlər var. Aidiyyəti qurumlar öz təkliflərini versə də, bizim də bu işə töhfəmiz olmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin bu gün keçirilən iclasında komitə sədri Musa Quliyev deyib.

"Bölgələrdə iş yerlərinin açılmasına diqqət yetirməliyik. Qarabağ və Şərqi Zəngəzurda böyük əmək cəbhəsi açılır. Dövlət büdcəsindən həmin ərazilərin bərpası üçün kifayət qədər vəsait ayrılıb. Bakı və Abşeron həddən artıq yüklənib. Digər bölgələrdə də yeni iş yerlərinin açılması, sosial infrastrukturun qurulması dövlətin qarşısında duran əsas məsələdir", - deyə komitə sədri bildirib.

M.Quliyev qeyd edib ki, əsas diqqət özəl sektora yönəlməlidir: "Əsas işəgötürən mənbə özəl sektor olmalıdır. Dövlət sektoru olduqca şişib böyüyə bilməz. Dövlət sektorunun müəyyən həddi var. Artıq o ştatlar təsdiq olunub, bundan sonra böyüdülməsinin tərəfdarı deyilik. Daha çox özəl sektor inkişaf etməlidir".

***Anar Kəlbiyev***

## Deputat aşağı sinif şagirdlərinin dərs yükünün çox olmasından danışdı



***"Valideynlər müraciət edirlər, amma cavabını tapa bilmirlər. Söhbət dərs proqramlarının yüklənməsindən gedir. Xüsusilə, birinci və ikinci siniflərə aiddir. Bu məsələyə baxan yoxdur. Bu nə qədər belə olacaq?"***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin bu gün keçirilən iclasında deputat Rauf Əliyev deyib.

"Valideynlər şikayət edirlər ki, işdən gəlirlər, uşaqlarla birgə dərs hazırlayırlar. Bu, məsələ öz həllini tapmalıdır. Elm və təhsil komitəsi ilə birgə dinləmə keçirək və görək ki, bu problemin kökü haradadır", - deyə deputat bildirib.

## Cinayət törətməkdə şübhəli bilinən 81 nəfər saxlanıldı



***Yanvarın 17-də ölkə ərazisində qeydə alınan 75, əvvəlki dövrlərdən bağlı qalan 2 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 123, o cümlədən borclu şəxs qismində axtarışda olan 98 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 53, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 29 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 81 nəfər saxlanılıb.

## "Qızılcaya yoluxanların hamısı peyvənd olunmayanlardır" - Komitə sədri



***”Nəinki indi, eləcə də COVID-19 dövründə də vaksinasiyaya qarşı müəyyən inamsızlıq var idi. İddia edirdilər ki, peyvəndlər insan sağlamlığı üçün təhlükəlidir, yaxud gen səviyyəsində müəyyən dəyişikliklər edilməsi üçündür”.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib.

Komitə sədri təəssüf hissi ilə bildirib ki, hətta həkimlər arasında belə fikirdə olanlar da olub: “Milli Məclisdə “Yoluxucu xəstəliklərlə mübarizə: qızılca infeksiyası ilə bağlı ölkədəki mövcud vəziyyət, peyvəndləmə və görülən tədbirlər”ə dair dinləmənin keçirilməsində əsas məqsədlərindən biri insanları inandırmaqdır, onlar bilməlidir ki, yoluxucu xəstəliklərlə mübarizə aparmaq istəyiriksə, mütləq peyvənd olunmalıyıq. Bütün dünya peyvəndlərdən istifadə edir. Heç kimdə belə fikir yoxdur ki, peyvənd fəsadlar törədir. Bizdə isə yanlış fikirlər formalaşır. Bu gün qızılcaya yoluxanların 100 %-i peyvənd olunmayan insanlardır”.

***Anar Kəlbiyev***

## 90 obyekt reklam qanunvericiliyini pozub

***2023-cü ildə Azərbaycanda 90 bazar subyektində bir sıra mal və yaxud xidmətinin reklamı zamanı qanunvericiliyin tələblərinin pozulması halları müəyyən edilib.***

”Unikal” xəbər verir ki, bunu İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli ötən ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, ən çox qanun pozuntusu tibbi xidmətlər və dərman vasitələrinin reklamı zamanı olub: ”Ötən il 20 belə qanun pozuntusu aşkarlanıb. Bank xidmətlərinin reklamı zamanı 15, alkoqollu içkilərin reklamı zamanı 13, turizm xidmətlərinin reklamı zamanı 11, bioloji fəallığa malik qida əlaqələrinin reklamı zamanı 9, sığorta sahəsində isə 6 qanun pozuntusu aşkar edilib”.

## Cinayətlərin 100 faizi açılıb - Xanlar Vəliyev

***İşçilərin peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin ümumilikdə 99,8 faizi, o cümlədən bəzi qəbildən olan cinayətlər 100 faizi açılıb.***

Bunu Hərbi Prokurorluqda geniş kollegiya iclası zamanı Hərbi prokuror Xanlar Vəliyev deyib.

Xanlar Vəliyev bildirib ki, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, nizam-intizamın və qanunçuluğun möhkəmləndirilməsi, eləcə də cinayətkarlığa qarşı mübarizə istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar, həmçinin qeyri-hökumət təşkilatları arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin də çox böyük əhəmiyyəti olub.

“2023-cü ildə də aidiyyəti dövlət orqanları ilə birgə hazırlanmış müvafiq tədbirlər planları əsasında mütəmadi olaraq hərbi qulluqçularla görüşlər təşkil olunub, onların qayğı və problemləri ilə maraqlanılıb, həmçinin fərdi qəbullar keçirilib. Eyni zamanda, bayramlarda və digər əlamətdar günlərdə hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanları ilə birgə hərbi qulluqçuların iştirakı ilə tədbirlər, o cümlədən bayram mərasimləri keçirilib və xidmətdə fərqlənənlərə hədiyyələr təqdim olunub”, - o qeyd edib.

# Mustafa Abbasbəylini təkzib edən işsizlik gerçəkliyi

## Həftənin sualı: Dövlət Məşğulluq Agentliyinin rəqəmləri ilə deputatların açıqlamaları niyə üst-üstə düşmür?

***Dünən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin keçirilən iclasında deputat Jalə Əliyev işsizlik probleminə toxunub və maraqlı fikirlər səsləndirib.***

“Ürəyim əsir ki, qəbullarda bizə müraciət edən seçicilər işlə bağlı müraciət etməsin. Çünki kömək etmək mümkün deyil, bu, çox çətin olur” - deyən xanım millət vəkilinin sözlərinə görə, dövlət yeni iş yerlərinin açılması istiqamətində bir çox işlər görsə də, yerlərdə işlə təminatla bağlı məsələ sanki daha da mürəkkəbləşdirilir: “Vətəndaş dövlət qurumlarının qapısı arasında sanki yol ölçür. Nəhayət bizdən kömək istəyir. Ona görə də məşğulluq məsələsinin koordinasiya edilməsi mühümdür. Bölgələrdən mərkəzə gəldikdə sanki bir qopuqluq var. Vətəndaşla qurum arasında körpü rolunu oynamağa çalışsaq da, bizə verilən cavablar formal olur. Vətəndaşı da işlə təmin etmək qeyri-mümkün olur. Bu kimi məsələlərin dinləmədə nəzərə alınması yaxşı olardı”.

Qeyd edək ki, Jalə xanım bir neçə ay öncə də bu mövzuya toxunmuşdu. O, noyabrda regionlarda işsizliyin böyük bir problemə çevrildiyini dilə gətirmişdi. Sitat: ”Rayonlarda iş yerlərinin açılması vacibdir. Bölgələrin deputatları ən çox bu işsizliklə bağlı müraciətlərlə qarşılaşır. Dünya dəyişib. İnsanlar artıq daha təkmil yaşamaq istəyir. İş yerləri dardır, demək olar ki, yoxdur. Artıq rayon icra hakimiyyətlərinin vətəndaşa iş təklif etməsi sıfıra bərabər olub. Böyük bir problemlə qarşılaşırıq”.

Ümumiyyətlə, son zamanlar bir sıra deputatlar işsizlik problemi ilə bağlı açıqlamalarla çıxış ediblər. Məsələn, ötən ilin noyabrında başqa bir xanım deputat - Jalə Əhmədova Salyan rayonunda işsizlik probleminin davam etməsindən şikayətlənmişdi. ”Əgər rayondakı müəssisələr bərpa edilərsə, işsizlik problemi azalar”, - deyə o, vurğulamışdı.

Deputat Fazil Mustafa isə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr və İnsan hüquqları komitələrinin birgə iclasında bildirmişdi ki, Naxçıvan Muxtar Respublikasında, demək olar, heç bir zavod-fabrik fəaliyyət göstərmir, bölgədə işsizlik sürətlə artır. ”İşsiz əhalidən təbii qaz və elektrik enerjisinin haqqı Bakı ilə eyni səviyyədə tələb edilir. Bunu mütləq azaltmaq lazımdır” - deyə deputat əlavə eləmişdi.

Bir müddət əvvəl başqa bir millət vəkili - Əli Məsimli isə ”ARB 24” telekanalının ”İşgüzar səhər” verilişində bildirmişdi: ”Bölgələrimizdə, rayon mərkəzlərində işsizlik baş alıb gedir. Belə bir vəziyyətdə məmurlar deyir ki, əhalinin güzəranı daha da yaxşılaşır. İşsizlərin sayı azalır”. Məsimli, həmçinin, iş yerləri barədə saxta statistika verənlərin cəzalandırılmalı olduğunu bildirmişdi.

Sonuncu məqam xüsusi diqqət çəkir. Çünki nə cəmiyyətdə, nə iqtisadçı ekspertlərdə, nə də deputatların bir çoxunda Dövlət Məşğulluq Agentliyinin işə qəbulla bağlı açıqladığı rəqəmlərin səhihliyinə inam var. Məsələn, bir müddət öncə deputat Razi Nurullayev mətbuata açıqlamasında demişdi ki, “Dövlət Məşğulluq Agentliyi insanları iş yerlərinə göndərir, vətəndaş gedib görür ki, iki aydır, artıq həmin iş yeri tutulub. Agentlik isə qeydə alır ki, guya filankəs işlə təmin olundu.



Agentliyin verdiyi “1000 nəfər işə düzəlib” statistikasının 900 nəfəri yalandır. Onlar işlə təmin olunmayıblar, sadəcə, adlarının qarşısına işarə qoyublar ki, guya “təmin olundu””.

Bir sözlə, əksəriyyət ölkədə işsizliklə bağlı rəqəmlərin doğruluğuna şübhə ilə yanaşır. Elə millət vəkillərinin dediklərindən də anlaşılır ki, bu problemin miqyası Mustafa Abbasbəylinin rəhbəri olduğu qurumun təqdim etdiyi mənzərədən xeyli fərqlidir.

Uzağa getməyək, elə ötən həftə keçirdiyi mətbuat konfransında Mustafa müəllim ötən il Azərbaycanda rekord sayda insanın işlə təmin olunduğunu bildirmişdi. Onun sözlərinə görə, 2021-ci ildə 77 min 640 nəfər, 2022-ci ildə isə 39 min 248 nəfər işlə təmin olunub. 2023-cü ildə isə bu göstərici 118 min 398 olub.

Dövlət Məşğulluq Agentliyinin İdarə Heyəti sədrinin bu açıqlaması, yəni, cəmi 1 il ərzində 118 mindən çox insanın işlə təmin olunması sosial şəbəkələrdə vətəndaşlar tərəfindən gülüşlə qarşılanmışdı, onlar bu statistikaya inanmadıqlarını qeyd etmişdilər. Elə bir çox siyasətçilər və iqtisadçılar da M.Abbasbəylinin səsləndirdiyi rəqəmləri şübhə altına almışdılar. Deputatların belə qəbullarda onlara müraciət edən seçicilərin işlə bağlı xahiş edəcəklərindən narahatlıqlarını dilə gətirməsi bütün bunların təsadüf olmadığını ortaya qoyur.

İndi qalır bircə sualın cavabını tapmaq: görəsən, Dövlət Məşğulluq Agentliyi rəhbərinin sözləri ilə ictimaiyyət nümayəndələrinin işsizlik mövzusundakı fikirləri arasında dərin uçurumun səbəbi, daha doğrusu, sirri nədədir?!

***Toğrul Əliyev***

# Sabiq icra başçısının pay sahibi olduğu deyilən şirkət ətrafında 2,7 milyon manatlıq qalmaqal!

## Dövlət Vergi Xidməti "Park City"ni məhkəməyə verdi, MMC rəhbərliyinin ölkədən çıxışına "stop" qoyula bilər

***Nizami rayon İcra Hakimiyyətinin keçmiş başçısı Arif Qasımova bağlı olan şirkətin rəhbərinin ölkədən çıxışına "stop" qoyula bilər.***

Belə ki, İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidməti Bakı Şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən "Park City" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) rəhbərliyi barəsində məhkəməyə müraciət edilib.

2017-ci ildə dövlət qeydiyyatına alınan, nizamnamə kapitalı 100 manat olan "Park City" tikinti şirkətinin hazırda vergi borcu 2. 780.034.39 manatdır.

Şirkətin ilk qanuni təmsilçisi Dadaşov Zaur Dadaş oğlu olub. Hazırda isə qanuni təmsilçi Nəsirli Azad Cəlil oğludur.

Dövlət Vergi Xidmətinin şikayəti Bakı Apellyasiya Məhkəməsinə yönəldilib. İşə hakim Rəşid Səmədovun sədrliyi ilə baxılacaq.

Xatırladaq ki, adıçəkilən şirkət bir müddətdir mediada qalmaqallı xəbərlərlə gündəmə gəlir. Belə ki, bir müddət öncə Nizami Rayon İcra Hakimiyyətinin sabiq başçısı Arif Qasımovun öz vəzifəsini itirdikdən sonra Nizami rayonu Rüstəm Rüstəmov 72A ünvanda payçısı olduğu "Park Sity " MMC tərəfindən tikilən hündürmərtəbəli binada tikinti işlərinin dayandırılması barədə məlumat yayılmışdı. İddia edilirdi ki, buna səbəb vergi orqanının qərarı olub. ""Park City" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus tikilidə əmlakın siyahıya alınması tədbirlərini həyata keçirən vergi orqanı 457 432,91 vergi borcu müqabilində 480 000 manat məbləğində əmlakı (obyekti) siyahıya alıb. Bununla bağlı Bakı Kommersiya Məhkəməsində keçmiş Vergilər Nazirliyinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinin cavabdeh



"Park City" MMC-yə qarşı siyahıya alınmış əmlakın açıq hərracda satılması tələbinə dair şikayətinə baxılması barədə məhkəmə prosesi də keçirilib" deyə qeyd olunurdu.

İndi isə belə görünür ki, aradan keçən müddətdə şirkətin vergi borcları daha da artıb və artıq həmin məbləğ milyonlarca manatla ifadə edilir.

Qeyd edək ki, şirkətin naxçıvanlı bir iş adamına məxsus olması ilə yanaşı, Arif Qasımovun da "Park City"də payı olduğu deyilir.

Lakin maraqlıdır ki, ölkə mediasında yer alan bu iddialara nə "Park City" MMC, nə də sabiq başçı rəsmi münasibət bildirməmiş, nəyə görəsə iddiaları yalanlamaq ehtiyacı duymamışdı.

"Unikal" qəzeti bir neçə ay öncə yerli mediada yayılan məlumatlara əsaslanaraq yazmışdı ki, Arif Qasımovun icra başçısı postunu itirdikdən sonra özünə yeni tikinti şirkəti yaratdığı, elə həmin şirkət xətti ilə Nizami rayonu ərazisində başqa bir göydələn ucaltdığına dair iddialar dolaşır. Lakin payçısı olduğu bildirilən "Park City" MMC illərdir yığılan vergi borclarını ödəyə bilmir, hətta bu borclar artıq astronomik həddə çatıb.

A.Qasımovun bütün bu deyilənlərə aydınlıq gətirməməsi, vergi borcu, az qala, 3 milyon manata çatan və ona görə də aidiyyatı dövlət qurumu tərəfindən məhkəməyə verilən şirkətin isə sözügedən mövzuda susqunluq nümayiş etdirməsi səslənən iddialarda həqiqət payının yüksək olduğunu söyləməyə imkan verir.

Xatırladaq ki, Nizami rayonunun sabiq icra başçısı bu vəzifəsini 2020-ci ilin sentyabrında qalmaqallı şəkildə itirib. Belə ki, onun postundan azad edilməsinə AzTV-nin Nizami rayonunun M.X.Şərifli və Ş.Mirzəyev küçələrinin kəsişməsində yerləşən parkda qanunsuz tikilmiş obyektlə bağlı hazırladığı süjetin səbəb olduğu bildirilib.

Süjetdə bildirilib ki, dövlətin həyata keçirdiyi sosialyönümlü layihələrin hər biri vətəndaşların güzəranının daha da yaxşılaşdırılmasına hesablandığı halda bəzi şəxslər yalnız maddi qazanc haqqında fikirləşir.

Qeyd olunub ki, bəzi hallarda acgözlük, artıq tamah bütün mənəvi dəyərləri üstələyir. Vətəndaşlar üçün salınan bu parkda ot örtüyünün üzərində hansısa qazanc məqsədli obyektin tikilməsini, yəqin ki, başqa cür izah etmək mümkün deyil. Vətəndaşlar da belə vəziyyətdən məmnun deyillər.

Reportajın efirə getdiyi günün ertəsi səhər saatlarında sakinlərin narazılığına səbəb olan obyekt sökülüb, elə həmin gün də Arif Qasımovun vəzifədən azad edilməsi ilə bağlı sərəncam imzalanıb.

Yada salaq ki, A.Qasımov həmin posta 2015-ci ildə təyin olunmuşdu. Onun icra başçısı işlədiyi dövrdə özünə iri biznes şəbəkəsi qurduğu, o cümlədən Nizami rayonu ərazisində saysız-hesabsız obyektlərə, mənzillərə yiyələndiyi barədə məlumatlar hələ vəzifədə olarkən geniş yayılmışdı.

***Toğrul Əliyev***

# Azərbaycanla İran arasında hərbi təhsil əməkdaşlığı müzakirə edildi

***Milli Müdafiə Universitetinin rektorunun elm üzrə müavini - Hərbi Elmi Tədqiqat İnstitutunun rektoru, milli təhlükəsizlik və hərb elmləri üzrə fəlsəfə doktoru, dosent, general-mayor Arif Həsənov rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə İranın Ali Milli Müdafiə Universitetinin rəisi general-mayor, doktor İsmayıl Əhmədi Müqəddəmin dəvəti ilə bu ölkədə səfərdə olub.***

Müdafiə Nazirliyindən (MN) "Unikal"a verilən məlumata görə, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti İran Ali Milli Müdafiə Universitetində olub. Nümayəndə heyəti İran Ali Milli Müdafiə Universitetinin elm, tədris və kitabxana bazası ilə tanış olub, onlara təhsil müəssisəsinin fəaliyyəti haqqında brifinq təqdim edilib.



General-mayor A.Həsənov dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, Milli Müdafiə Universitetinin yaranma tarixi, onun nəzdindəki hərbi təhsil müəssisələrinin əsas fəaliyyət istiqamətləri, strukturu ilə bağlı məlumat verib.

Görüşdə elm və təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi baxımından qarşılıqlı səfərlərin və bu cür görüşlərin zəruriliyi xüsusi vurğulanıb.

Səfər çərçivəsində, həmçinin İran Ordusunun Komanda və Qərargah Universiteti, İran Silahlı Qüvvələri Baş Qərargahının Beynəlxalq Əməkdaşlıq İdarəsi də ziyarət edilib.

Görüşlərdə ölkələrimiz arasında hərbi təhsil sahəsində maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.



# Əməkdar jurnalist yenə xəstəxanaya yerləşdirildi

***Uzun müddətdir müxtəlif xəstəliklərdən, o cümlədən ayaqlarındakı problemdən əziyyət çəkən Əməkdar jurnalist Rəhman Məmmədzadə (Orxan) bu dəfə Sumqayıtdakı 2 nömrəli Xəstəxanaya yerləşdirilib.***

"Unikal" xəbər verir ki, Sumqayıt Tibb Mərkəzinin (STM) direktoru Elnur Azadxanov Əməkdar jurnalisti xəstəxanada ziyarət edib. Rəhman Orxanla həmsöhbət olan Elnur Azadxanov onun səhhəti ilə maraqlanıb, tezliklə sağlamlığına qovuşmasını arzulayıb.

Qeyd edək ki, Rəhman Orxan uzun illər "Vışka" qəzetinin xüsusi müxbiri işləyib. "Bakinets" qəzetinin təsisçisi və baş redaktoru olub. Dağlıq Qarabağ mövzusuna, xalqımızın erməni faşizminə qarşı apardığı ədalətli mübarizəyə həsr olunmuş yazılarına və jurnalist hüquqlarının müdafiəsinə görə 1993-cü ildə Osman Mirzəyev adına Respublika mükafatına layiq görülüb.

2001-2013-cü illərdə "Azərikimya" İstehsalat Birliyinin Mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışıb.

Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Bir neçə kitabın müəllifi və redaktorudur.

Prezident İlham Əliyevin 4 oktyabr 2016-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Əməkdar jurnalisti fəxri adı verilib.

# Bakının bu ərazilərində hepatit virusu yayıldı




***Bakı şəhəri, Suraxanı rayonu Əmircan və Bülbülə qəsəbələrinin əhalisi arasında 2023-cü ilin dekabr ayından başlayaraq yoluxucu Hepatit "A" virusu xəstəliyi yayılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzi məlumat yayıb.

Bildirilib ki, xəstəliyin yayılmasının qarşısının alınması ilə bağlı tədbirlər davam etdirilir.

"Aparılan profilaktik tədbirlər ilə əlaqədar "Azərsu" ASC-nin mütəxəssisləri ilə birgə mərkəzləşdirilmiş içməli su şəbəkəsində laborator müayinə üsullarının tətbiqi ilə monitorinqlər keçirilir. Profilaktik tədbir olaraq su şəbəkəsində qalıq xlorun müvəqqəti yüksəlməsi ilə bağlı Əmircan və Bülbülə qəsəbələrini qidalandıran +54 Ramana mərkəzi su anbarının ərazisində 1 ədəd xlor tərkibli reagent dozalayıcı nasos quraşdırılıb. Eyni zamanda, "Azərsu" ASC-nin Suraxanı rayon Sukanal idarəsinin mütəxəssisləri rayon GEM-nin əməkdaşları ilə birgə fərdi yaşayış evlərində yerləşən ehtiyat su çənlərinin yuyulub dezinfeksiya edilməsi ilə bağlı tədbirlər həyata keçirilib", - məlumatda vurğulanıb.

02_27 IYUl-QARA.qxd 1/18/2024 10:46 PM Page 11






## Növbəti köç karvanı Füzuli şəhərinə çatdı

***Yanvarın 18-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Füzuli şəhərinə çatıb.***

"Unikal" xəbər verir ki, yeni köçürülən ailələrə mənzillərinin açarlarının təqdimat mərasimi keçirilib.

Mərasimdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəliyinin rəsmiləri iştirak ediblər.

Köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bu mərhələdə Füzuli şəhərinə daha 30 ailə - 127 nəfər köçürülüb. Bununla da Füzuli şəhərində 410 ailə, 1519 nəfərin daimi məskunlaşması təmin edilib.

## Nazir Məcnun Məmmədov Macarıstan səfiri ilə görüşdü

***Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Macarıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Tamaş Torma ilə görüşüb.***

"Unikal" xəbər verir ki, qonaqları salamlayan kənd təsərrüfatı naziri Məcnun Məmmədov Azərbaycanda aqrar sektora dövlət dəstəyi barədə görüş iştirakçılarına ətraflı məlumat verib. Bildirilib ki, iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Tərəflər aqrar sahədə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını vurğulayıblar.

Görüşdə Azərbaycan ilə Macarıstan arasında aqrar sahədə əməkdaşlıq və hüquqmüqavilə bazasının gücləndirilməsi, kənd təsərrüfatı və qida məhsullarının ticarət dövriyyəsinin artırılması, kənd təsərrüfatı sahəsində ən müasir texnologiyaların transferi, aqrar sektorda elmi-tədqiqat və təhsil sahələrində təcrübə proqramlarının həyata keçirilmə məsələləri müzakirə olunub.

Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

## Sərhədi pozmağa çalışan Pakistan vətəndaşları saxlanıldı

***Yanvar ayının 17-də saat 02:00 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Xudat" sərhəd dəstəsinin xidməti ərazisində Azərbaycan Respublikasından Rusiya Federasiyası istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən Pakistan İslam Respublikası vətəndaşları 1998-ci il təvəllüdlü Wali Noor Khan və 2001-ci il təvəllüdlü Wahab Abdul Tauzeel saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə DSX məlumat yayıb.

Bildirilib ki, araşdırma əməliyyat-istintaq tədbirləri nəticəsində saxlanılan şəxslərin ölkə ərazisinə rəsmi qaydada gəldikləri, dövlət sərhədini pozaraq qeyri-qanuni yollarla miqrasiya etmək niyyətində olduqları müəyyən edilib.

Fakt üzrə araşdırma tədbirləri davam etdirilir.

# Dövlət qulluğuna qəbul imtahanı keçiriləcək

***Dövlət İmtahan Mərkəzi tərəfindən 18 fevral 2024-cü il tarixində dövlət qulluğu vəzifələrinin B növünə aid olan BA və BB altqruplarına uyğun olan vəzifələr üzrə test imtahanı keçiriləcək.***

DİM-dən "Unikal"a bildirilib ki, imtahanda iştirak etmək üçün qeydiyyat 18 yanvar saat 14:00-dan 6 fevral saat 11:00-dək aparılacaq. İmtahan Bakı və Naxçıvan şəhərlərində keçiriləcək. Bakıda namizədlər üçün 3000, Naxçıvanda isə 500 yer ayrılıb.

İmtahan yeri (binası) barədə məlumat imtahandan 5 gün əvvəl Mərkəzin saytına yerləşdiriləcək "İmtahana buraxılış vərəqəsi"ndə qeyd olunacaq.

İmtahanda iştirak etmək istəyən namizədlər DİM-in portalında "Şəxsi kabinet"lərini (şəxsi kabineti olmayanlar) yaratmalıdırlar. Kabinet yaradılan zaman pul hesabı açılır. İmtahanlarda iştirak üçün ödəniş tarifləri ilə buradan tanış ola bilərsiniz. "Şəxsi kabinet"də olan pul hesabına vəsait daxil etmək üçün müxtəlif ödəniş üsullarından (ətraflı məlumat www.payment.dim.gov.az saytında verilmişdir) istifadə etmək olar. "Şəxsi kabinet" yaradıldıqdan və hesaba lazımi vəsait daxil edildikdən sonra imtahanlarda iştirak etmək üçün DİM-in internet portalında "Dövlət qulluğuna qəbul üzrə test imtahanında iştirak etmək üçün onlayn qeydiyyat" xidməti vasitəsilə qeydiyyatdan keçmək lazımdır. Qeydiyyatdan keçən və imtahanda iştirak etməyən namizədlərin ödədiyi məbləğ geri qaytarılımır.

Qeydiyyat zamanı ali təhsil haqqında məlumatlar "Tələbə-məzun"



dövlət elektron məlumat sistemi vasitəsilə yoxlanılır və namizəd haqqında məlumatlar sistemdə olmadıqda onun qeydiyyatı aparılmır. Bu halda Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olunmuş namizəd ona aid məlumatların "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə daxil edilməsi üçün bitirdiyi təhsil müəssisəsinə müraciət etməlidir. Xaricdə təhsil almış namizədlər və sistemdə ali təhsil haqqında məlumatı olmayan digər namizədlər DİM-ə (Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299 və ya DİM-in regional bölmələrinə) müraciət etməlidir. Məlumatları "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə daxil edilmiş namizədlər qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatdan əvvəl namizədlər təhsil haqqında məlumatlarının "Tələbə-məzun" dövlət elektron məlumat sistemində olub - olmadığını "Elektron hökumət" portalından DİM-in "Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış" elektron xidməti vasitəsilə öyrənə bilərlər.

Namizədlərin qeydiyyatdan keçməmişdən əvvəl vəzifə qrupunu düzgün seçmələri, imtahana daha səmərəli hazırlaşmaları və imtahanda davranış qaydaları ilə tanış olmaları üçün aşağıdakılardan istifadə etmələri tövsiyə olunur:

Test imtahanında yoxlanılacaq bilik sahələri və hər sahə üzrə test tapşırıqlarının sayı və vəzifə altqrupları üzrə keçid balları;

Test imtahanı proqramları;

"Namizədin yaddaş kitabçası" - kağız daşıyıcılar vasitəsilə keçirilən test imtahanları üçün;

Namizəd şəxsiyyətini təsdiq edən sənədi və imtahana buraxılış vərəqəsini təqdim etməklə test imtahanında iştirak edir.

Test imtahanından müvəffəqiyyətlə keçən namizədə altqruplara daxil olan vəzifələrə uyğun olaraq sertifikat verilir. Sertifikatın qüvvədə olma müddəti 5 ildir. Namizəd dövlət qulluğu vəzifələri üzrə bir neçə sertifikat ala bilər.

İnzibati vəzifələrin müvafiq altqrupu üzrə Sertifikata malik olan şəxs Sertifikatda nəzərdə tutulmuş vəzifə, habelə həmin altqrupun aid olduğu qrup daxilində daha aşağı altqruplara uyğun olan vəzifə üzrə keçirilən müsahibələrdə iştirak edə bilər. Elan edilmiş müsahibədə iştirak üçün müraciət edən namizəd qanunvericiliklə müəyyən edilmiş vakant vəzifələrin tutulmasının ümumi şərtlərinin tələblərinə cavab verməlidir. Ümumi şərtlərin tələblərinə cavab verməyən namizəd müsahibədə iştirak edə bilməz.

# Tək qalmağın psixi sağlamlığa faydaları

***İnsanlar sosial varlıqlardır və sosial əlaqələr qurmaq həm emosional, həm də fiziki rifah üçün vacibdir, lakin bəzən tək başına vaxt keçirmək daha yaxşıdır. Tənha gördüyümüz insanlara daha mənfi münasibət bəslədiyimizi və bu stiqmanın tək vaxtımızdan həzz almağımıza mane ola biləcəyini göstərir. Ancaq tək olmağın bir çox faydası var.***

"Unikal" tək qalmağın psixi sağlamlığınız üçün faydalarını sizinlə bölüşür:

- Tək vaxt keçirməyiniz zehninizi inkişaf etdirmək və yaradıcılığınızı gücləndirmək üçün bir fürsətdir. Bildirilir ki, tək olmaq beyindəki yaradıcılıq prosesini gücləndirməyə kömək edə bilər.

- Tək vaxt keçirməyi seçmək, başqalarının seçimlərini və ya fikirlərini nəzərə almadan sizi xoşbəxt edən şeylər etmək fürsəti verə bilər. Bundan əlavə, tək olduğunuz zaman sizi xoşbəxt edən hobbilərə vaxt ayırmaq sizin üçün daha asan olur.



- Tək olmaq məhsuldarlığı artıra bilər, çünki diqqəti yayındıran daha az şey işin görülməsini çox asanlaşdıra bilər. Əgər başqalarının ətrafında olmağa öyrəşmisinizsə, tək olduğunuz zaman işləri görməkdə çətinlik çəkə bilərsiniz.

- Tək vaxt keçirmək, özünü fərqləndirməni və ya başqaları ilə birlikdə şəxsiyyət hissini qoruyub saxlamaq qabiliyyətini təkmilləşdirməklə uzunmüddətli perspektivdə münasibətlərini gücləndirməyə kömək edə bilər. Yəni tək vaxt insanın özünü dərk etmə qabiliyyətini və emosiyaları ilə uyğunlaşma qabiliyyətini artırdığı üçün ətrafa fərqli baxmağa imkan verdiyi üçün onun empatiya qabiliyyətini də təkmilləşdirir.

- Özünüzlə tək qalmaq; Bu, yeni şeyləri sınamaq, bilik əldə etmək və hətta özünü ifadə etməyin yeni üsullarını tətbiq etmək üçün bir yol ola bilər. Tək olduğunuz zaman başqalarının tətbiq edə biləcəyi təzyiqlər və mühakimələr olmadan özünüzü kəşf edə bilərsiniz. Beləliklə, tək olmaq şəxsi inkişafınıza kömək edə bilər.

***Gülayə Mecid***

02_27 IYUl-QARA.qxd 1/18/2024 10:46 PM Page 12



## 5.3.19. uşaq və gənclərin fiziki və mənəvi inkişafı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# UGİM-lərin fəaliyyəti uşaq və gənclərin inkişafına necə təsir edir?

### Dövlət Agentliyi: "Hazırda Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin tabeliyində 78 idman, 67 yaradıcılıq profilli olmaqla 145 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir"



***Gənc nəslin vətənpərvər və sağlam böyüməsi dövlətin diqqət göstərdiyi əsas istiqamətlərdən biridir. Uşaq-gənclərin fiziki sağlam böyüməsi, onlarda idmana həvəs oyatmaq üçün dövlət öz qayğısını əsirgəmir. Artıq illərdir ki, ölkəmizdə uşaq və gənclərin məktəbdənkənar inkişafına xidmət edən Uşaq, Gənclər İnkişaf Mərkəzləri fəaliyyət göstərir. Bu günlərdə Azərbaycan Cüdo Federasiyasının "U-18 yeniyetmələr arasında Azərbaycan birinciliyi"nin yarışlarında 46 çəki dərəcəsində qaliblərdən biri-Anar Quliyev məhz Şuşa UGİM-in yetirməsidir.***

Son illər UGİM-lərin yetirmələrinin idman yarışlarında birincilik qazanması təsadüfi deyil. Çünki bu idman məktəblərinə peşəkar məşqçilər cəlb olunmaqla yüksək keyfiyyətli dərslər təşkil olunur.

Təhsil üzə ekspert Ramin Nurəliyev deyir ki, uşaqların asudə vaxtının düzgün təşkil olunması üçün Uşaq, Gənclər İnkişaf Mərkəzlərinin (UGİM) fəaliyyəti vacibdir. Uşaq və gənclər bu mərkəzlərin nəzdində təşkil olunmuş dərnəklərdə iştirak edir, musiqi, rəsm, ətraf mühit, idman və sair sahələr üzrə biliklərə yiyələnirlər. R. Nurəliyevin sözlərinə görə, UGİMlər uşaqların sosial inkişafına, onların layiqli vətəndaş kimi böyüməsinə də müsbət təsir göstərir. UGİM-lərə cəlb olunan uşaqlar arasında istedadlılar üzə çıxardılır, belə uşaqlar tədbirlərdə iştirak edərək cəmiyyətin fəal üzvünə çevrilirlər.

"Bu gün nə qədər uşaq və yeniyetmə var ki, belə Mərkəzlərin nəzdində təşkil olunmuş idman məktəblərində yetişiblər. Uşaq və gənclərin asudə vaxtının düzgün təşkil olunması onları zərərli vərdişlərə aludə olmaqdan da qoruyur. Onlar sağlam və aktiv həyat tərzinə öyrəşirlər. Bu böyüdükdə də onların həyat tərzinə çevrilir" deyə R. Nurəliyev bildirib.

Həmsöhbətimiz deyir ki, narkomaniyanın geniş yayıldığı dövrdə uşaq və gənclərin belə mərkəzlərə yönəlməsi vacib amildir. Onun sözlərinə görə, uşaq və gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların yaradıcılıq qabiliyyətləri və fiziki imkanlarının inkişafı məqsədilə uşaq-gənclər inkişaf mərkəzlərində təsviri incəsənət, dekorativ-tətbiqi sənət, xoreoqrafiya, musiqi, bədii və texniki yaradıcılıq, turizm və diyarşünaslıq, ekologiya, intellekt istiqamətləri üzrə dərnəklərin, həmçinin uşaq-gənclər idman-şahmat məktəblərində idmanın 29 növü üzrə qrupların fəaliyyəti nəzərdə tutulur.

Bəs görəsən, UGİM-lər hansı istiqamətlər üzrə fəaliyyət göstərir? Onların fəaliyyəti respublikanı əhatə edirmi?

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən "Unikal" qəzetinin sorğusuna cavabda bildirilib ki, məktəbdənkənar təhsil uşaq, yeniyetmə və gənclərin maraq, meyl və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcı qabiliyyətlərinin inkişafı, fiziki imkanlarının artırılmasını təmin edən təhsil növüdür. Məktəbdənkənar təhsil müəssisələri idman və yaradıcılıq istiqamətləri üzrə fəaliyyət göstərir. İdman profilli məktəbdənkənar təhsil müəssisələrində tədrisin təşkili Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollegiyasının 19 oktyabr 2001-ci il tarixli 8 (b-3) nömrəli qərarı ilə təsdiq edilmiş normativ əlavələrə uyğun aparılır. İdman profilli məktəbdənkənar təhsil müəssisələrində 29 idman növü üzrə - ağır atletika, atletika, idman gimnastikası, bədii gimnastika, batut, baydarka və kanoye, boks, basketbol, badminton, karate, cüdo, futbol, əl topu, tennis, stolüstü tennis, sərbəst güləş, yunan-roma güləşi, üzgüçülük, güllə atıcılığı, taekvando, voleybol, velosiped idmanı, qılıncoynatma, akrobatika gimnastikası, tamblinq, sambo, atıcılıq, şahmat, dama bölmələri fəaliyyət göstərir. Yaradıcılıq profilli məktəbdənkənar təhsil müəssisələrində tədrisin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 sentyabr 1994-cü il tarixli 334 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində məktəbdənkənar müəssisələrin nümunəvi əsasnaməsinə uyğun aparılır. Bu müəssisələrdə təsviri incəsənət, dekorativ-tətbiqi sənət, xoreoqrafiya, musiqi, bədii yaradıcılıq, texniki yaradıcılıq, intellekt, ekologiya, turizm və diyarşünaslıq, fiziki tərbiyə istiqamətlər üzrə bölmələr fəaliyyət göstərir.

Hazırda Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin tabeliyində 78 idman, 67 yaradıcılıq profilli olmaqla 145 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. İdman profilli uşaq-gənclər idman şahmat və uşaq-gənclər idman məktəblərində və yaradıcılıq profilli uşaq-gənclər inkişaf mərkəzlərində 110 000-ə yaxın məktəbli dərnək və qruplara cəlb edilib.Məktəbdənkənar təhsil müəssisələrinin təşkilatçılığı ilə mütəmadi olaraq uşaq, yeniyetmə və gənclərin maraq, meyl və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki imkanlarının artırılması, istedadlı məktəblilərin aşkar edilməsi, təhsilalanların vətənpərvərlik hissinin gücləndirilməsi, şagirdlərin sağlam həyat tərzinə istiqamətləndirilməsi, asudə vaxtlarının səmərəli təşkili məqsədilə il ərzində tədbirlər keçirilir. Bu istiqamətdə respublikamızda fəaliyyət göstərən təhsil müəssisələrinin şagirdlərinin iştirakı ilə respublika yaradıcılıq müsabiqələri, festivallar, intellektual oyun və bilik yarışları, respublika birincilikləri və idmanın müxtəlif növləri üzrə yarışlar keçirilir, ekskursiyalar təşkil edilir.

*Gülayə Mecid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Mədəniyyətlə bağlı strategiya yaxın vaxtlarda təqdim olunacaq

***"Azərbaycan mədəniyyəti 2020-2040-cı illərdə dövlət strategiyası" yaxın zamanlarda təqdim olunacaq.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Mədəniyyət komitəsinin bu gün keçirilən iclasında komitə sədri Fazil Mustafa deyib.

O bildirib ki, təxminən 1-2 ay ərzində strategiya sənədinin təqdimatı gözlənilir: "Təklif edərdim ki, buna qədər Mədəniyyət Nazirliyi və komitə arasında hər hansı görüş keçirilsin. Komitə üzvlərinin də fikirləri dinlənilsin".

*Anar Kəlbiyev*

## Tələbələrin neçə faizi təqaüd alır? - Rəsmi açıqlama

***2023-2024-cü tədris ilinin əvvəlinə ölkədə fəaliyyət göstərən 59 orta ixtisas təhsili müəssisəsində 65,6 min tələbə (2022/2023-cü tədris ili ilə müqayisədə 1,5 faiz artım) təhsil alıb. Onların 62,5 faizini qızlar təşkil edir.***

Bu barədə "Unikal"ın Dövlət Statistika Komitəsindən əldə etdiyi məlumatda bildirilib.

Hazırda Azərbaycanda bakalavr və magistrlərin hazırlanmasını həyata keçirən dövlət və qeyri-dövlət ali təhsil müəssisəsində, eləcə də elmi təşkilatda və tibb müəssisələrində təhsil alanların sayı 231,4 min nəfərdir.

Onların da 51,1 faizini qızlar təşkil edir. Əvvəlki tədris ili ilə müqayisədə tələbələrin sayı 8,6 min nəfər və ya 3,9 faiz artıb.

Rəsmi statistikaya görə, ölkənin ali təhsil müəssisələrinə tələbə qəbulunun artması müşahidə olunur. Belə ki, ali təhsilin bakalavr səviyyəsinə qəbul olunan tələbələrin sayı 2022-ci illə müqayisədə 4,7 faiz artaraq 52,9 min nəfər olub. Qəbul geniş profilli ixtisas siyahısına uyğun olaraq həyata keçirilib.

Bakalavriata qəbul olunan tələbələrin ümumi sayında ödənişli əsaslarla təhsilə qəbul olunanların xüsusi çəkisi 49,8 faiz olub ki, onların da 76,6 faizi dövlət ali təhsil müəssisələrinin payına düşür. Hazırda dövlət ali təhsil müəssisələrinin əyani şöbələrində oxuyan tələbələrin 55,3 faizi təqaüd alır.

## Varşavada Azərbaycan barədə yalan məlumatlar yayan nəşrə etiraz

***Polşanın paytaxtı Varşavada yerləşən "Polityka" media şirkətinin ofisi qarşısında Azərbaycan icmasının dinc aksiyası keçirilib.***

Polşa Azərbaycanlıları Şurasının təşkilatçılığı ilə baş tutan icazəli aksiya "Polityka" jurnalının müxbiri Konstanty Gebertin II Qarabağ müharibəsi və Azərbaycanın tarixi Qələbəsi ilə bağlı təxribat və böhtan xarakterli məqalələrinin dərc olunmasına etiraz məqsədilə gerçəkləşdirilib.

Aksiyada çıxış edən diaspor fəalları Şamo Qubadov və Tuncay Novruzzadə "Polityka" jurnalında erməni diasporunun təsiri altında saxta xəbərlərin yayılmasını sərt şəkildə pisləyiblər. Bu nəşrin əməkdaşlarını faktları dəqiq yoxlamağa, Azərbaycan həqiqətlərini dürüst işıqlandırmağa, jurnalistikanın obyektivlik, tərəfsizlik və qərəzsizlik kimi prinsiplərinə əməl etməyə çağırıblar.

"Erməni diasporu medianı manipulyasiya edir", "Qərəz yox, güzəşt yox, yalnız faktlar vacibdir!", "Medianın ikili standartları bütün çılpaqlığı ilə", "Azərbaycana qarşı feyk xəbəri dayandırın!", "Azərbaycanlı uşaqlar öldürüləndə media harada idi?" və başqa şüarların əks olunduğu plakatlar nümayiş etdirilib.

Sonra Polşa Azərbaycanlıları Şurasının İdarə Heyətinin üzvü Şamo Qubadov jurnalın baş redaktoruna çatdırılması üçün soydaşlarımızın etiraz bəyanatını "Polityka" media şirkətinin ofisinə təqdim edib.

Aksiyanın təhlükəsizliyi yerli polis tərəfindən təmin olunub.



## Dövlət Xidməti ötən il 8 minə yaxın müraciətə baxıb

***2023-cü ildə Azərbaycanda istehlakçı hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət üzrə ümumilikdə 7 597 müraciətə baxılıb, bu da 2022-ci illə müqayisədə 36,4 % çoxdur.***

"Unikal" xəbər verir ki, bunu İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli ötən ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında bildirib.

"Ötən il daxil olan müraciətlərin təmin olunma səviyyəsi əvvəlki ilə nisbətən 26,6 faiz bəndi artıb", - deyə o qeyd edib.

"Hesabat dövründə sahibkarlıq subyektləri istehlakçılara 618 min manatdan çox vəsait qaytarıb. Bu isə 83 % artım deməkdir", - deyə M.Abbasbəyli əlavə edib.

## Tütün istifadəsinin məhdudlaşdırılması ilə bağlı qanunun monitorinqi keçiriləcək

***Yaz sessiyasında tütün istifadəsinin məhdudlaşdırılması ilə bağlı qanunun monitorinqi ilə əlaqədar dinləmə keçirəcəyik.***

Bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında komitə sədri Musa Quliyev deyib.

Komitə sədri bildirib ki, bunun üçün komitədə İşçi Qrup var: "Bu İşçi Qrupun rəhbəri Məlahət İbrahimqızıdır. Məşğulluqla bağlı keçirəcəyimiz dinləmə üçün də İşçi Qrup yaratmalıyıq. Təklif edirəm bu İşçi Qrupuna Ziyad Səmədzadə rəhbərlik etsin. O həm də demoqrafik göstəricilərlə bağlı məlumatlıdır".

## Bağçaya gedə bilməyən uşaqlar təhsilə cəlb ediləcək

***Məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi, müxtəlif səbəblərdən məktəbəqədər təhsillə əhatə oluna bilməyən uşaqların cəlb edilməsi Elm və Təhsil Nazirliyinin əsas strateji hədəflərindəndir. Bu məqsədlə nazirlik tərəfindən alternativ modellərin tətbiqi nəzərdə tutulur.***

Bu barədə Elm və Təhsil Nazirliyindən bildirilib. İlk dəfə həyata keçirilən "Alternativ məktəbəqədər təhsil xidmətlərinin təşkili" pilot qrant proqramı da həmin istiqamətdə görülən işlərdən biridir.

Qeyd edilən proqrama 19 layihə təqdim edilib və onlardan 16-sı qrant qazanıb. Qrant qazanmış layihələr Bakı, Naxçıvan, Astara, Füzuli, Göygöl, Lənkəran, Masallı, Şəki, Şirvan, Zaqatala üzrə olmaqla ümumilikdə 16 rayon və şəhəri əhatə edir. İl ərzində həyata keçiriləcək layihələrin əsas benefisiarları müxtəlif səbəblərdən məktəbəqədər təhsillə əhatə oluna bilməyən uşaqlardır. Layihələr çərçivəsində uşaqların alternativ təhsil modellərinin köməyi ilə məktəbəqədər təhsilə cəlb edilməsi təmin olunacaq.

# Pensiya kapitalını tam götürmək mümkün ola bilər

***Çox vaxt insanlar topladıqları pensiya kapitalını birdəfəyə əldə etmək arzusunda olurlar. Elə hesab edən vətəndaşlar var ki, bu vəsait onlara aid olduğundan pulu hissələrlə deyil, tam şəkildə götürməlidirlər. Çünki bir çox hallarda insan ömrünün müddəti pensiya kapitalından tam yararlanmağa imkan vermir. Lakin qanunvericilik pensiya kapitalından pensiya yaşına çatdıqdan sonra 12 il ərzində əldə etməyi nəzərdə tutur. Başqa sözlə, pensiya kapitalı 144 aya bölünərək aylıq pensiya şəklində ödənilir. İlbəil isə aylıq pensiya məbləği orta aylıq əməkhaqqının illik artımına uyğun artırılır.***



Bununla belə, gələcəkdə pensiya kapitalını birdəfəyə götürmək mümkün ola bilər. Ancaq bu, özəl pensiya fondlarında toplanılan vəsaitlərə aid olacaq. Daha dəqiq desək, vətəndaşlar əməkhaqlarından məcburi dövlət sosial haqqı ilə yanaşı, özəl pensiya fonduna da vəsait ödəməklə özlərinə əlavə pensiya təminatı yarada biləcəklər. Hazırda işləyənlərin məcburi dövlət sosial haqları əməkhaqqının 25 faizi həcmindədir. Onun bir hissəsini işləyən, digərini işəgötürən ödəyir. Dövlət sektorunda işləyənlər əməkhaqqının 3 faizi, özəl sektordakılar 10 faizi (200 manatadək hissəsinin 3 faizi) həcmində sosial sığorta haqqı ödəyir. Vətəndaş özəl pensiya da almaq istəyirsə, əlavə ödəniş etməli olacaq. Bununla belə, dünya təcrübəsində özəl pensiya üçün fonda ödənişin işəgötürən tərəfindən edildiyi hallar da mövcuddur.

Pensiya yaşına çatdıqda, vətəndaşlar dövlət sosial haqqı hesabına toplanan pensiya kapitalını hissələrlə almalarına baxmayaraq, özəl fonddakı vəsaiti hissələrlə yanaşı, birdəfəlik də ala bilərlər.

Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri Himalay Məmişov jurnalistlərə bildirib ki, məcburi dövlət sosial haqqı adından da göründüyü kimi, məcburidir. Özəl pensiya fonduna ödəniş isə könüllü olacaq. Fondla bağlı normativ baza yaradılıb və layihələr hazırlanıb. Sənəd razılaşma mərhələsindədir.

İqtisadçı Rəşad Həsənov isə düşünür ki, Azərbaycanda özəl pensiya fondlarının yaradılmasının vaxtı yetişməyib. Ekspert məsələni "Qafqazinfo" üçün şərh edərkən deyib ki, uzunmüddətli dövr üçün əhalidə yığım vərdişləri güclü deyil. Eyni zamanda, maliyyə təsisatlarına etibar zəifdir. Bunu banklara qoyulan vəsaitlərin əksər hissəsinin qısamüddətli olması da sübut edir. Bu baxımdan əhalinin 25-30 il ərzində özəl pensiya fondlarına nə dərəcədə etibar edəcəkləri sual altındadır: "Digər məsələ insanların imkanları məsələsidir. Əhalinin maddi imkanları geniş deyil. Onlar özlərini gündəlik qayğıları ilə məşğul olmağa həsr edir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, əhali vəsaitlərinin 50-60 faizə qədərini gündəlik tələbat mallarının alınmasına xərcləyir. Bu göstərici inkişaf etmiş ölkələrlə müqayisədə 3-4 dəfə artıqdır və əhalinin yığım imkanlarını aşağı salır".

R.Həsənov vurğulayır ki, bu mənada çox az bir qisim sosial qrup özəl pensiya fondlarında vəsait yerləşdirə bilər. Lakin bir məsələni qeyd etmək lazımdır ki, özəl pensiya fondlarında olan vəsaitlər müəyyən bir səviyyəyə qədər artdıqdan sonra belə qurumlar mənfəətlə işləyə bilərlər. Bu səviyyəyə çatmaq üçün belə fondlara qeyd edilənlərin əksi olaraq böyük vəsaitlər cəlb edilməlidir. Məsələnin başqa tərəfi isə ölkədə qiymətli kağızlar bazarının inkişaf etməməsidir. Söhbət ondan gedir ki, fondların əhalidən topladığı vəsait qiymətli kağızlara yatırılmaqla gəlir əldə olunmalıdır".

Görünən odur ki, bu şərtlər daxilində özəl pensiya fondunun yaradılması asan deyil. Lakin bu barədə daha ətraflı fikir yürütmək qanunun qəbulundan sonra mümkündür.

# İTS ilə 800 000-ə yaxın MRT və KT müayinəsi aparılıb

***İxtisaslı həkim tərəfindən təyin olunan kompüter tomoqrafiyası (KT) və maqnit-rezonans tomoqrafiyası (MRT) müayinələri icbari tibbi sığortanın təminatına daxildir. Baş-beyin, onurğa sütunu, döş qəfəsi, qarın boşluğu və çanaq orqanları, sümük-oynaq sistemi, yumşaq toxumaların KT və MRT müayinələri vətəndaşlara ödənişsiz şəkildə göstərilir. 2021-2023-cü illərdə icbari tibbi sığorta çərçivəsində aparılmış MRT müayinələrinin sayı 348 955, KT müayinələrinin sayı isə 442 165 olub.***

KT və MRT kimi müasir vizualizasiya metodları insan bədəninin daxili orqan və toxumalarının vəziyyətini qiymətləndirməyə, müxtəlif patologiyaları aşkar etməyə imkan verir. Hər iki müayinə metodu xəstənin şikayətləri nəzərə alınaraq ixtisaslı həkim müayinəsi əsasında təyin olunur.

KT - daha çox sümüklərin, yumşaq toxumaların və qan damarlarının təfsilatlı görüntüsünü əldə etmək üçün istifadə olunan şüa diaqnostikası metodudur. KT vasitəsilə daxili orqanların, eləcə də sümüklərin zədələnməsini, daxili qanaxmaları aşkarlamaq mümkündür. Kəllə, döş və qarın boşluğunun kontrastlı KT müayinəsi ağciyər emboliyası, qan damarlarının tutulmalarını müəyyən etməyə imkan verir. MRT ilə müqayisədə KT müayinəsi daha az müddət çəkdiyi üçün təcili diaqnostikada istifadə edilir.




KT üçün rentgen şüalarından istifadə edildiyindən bu müayinə metodu hamilə qadınlara, südverən analara və azyaşlı uşaqlara tövsiyə olunmur.

MRT- ionlaşdırıcı şüalanmadan istifadə etməyən təhlükəsiz diaqnostika üsuludur. MRT əsasən baş və onurğa beynin, yumşaq toxumaların dəyərləndirilməsi üçün ən effektiv müayinə üsuludur. MRT müayinəsi sinir sistemi xəstəliklərinin diaqnostikasında, o cümlədən fəqərəarası disk yırtığı və onurğa kanalının daralmasının daha aydın görüntülənməsində tətbiq edilir. MRT müayinəsi həmçinin onkoloji xəstəliklərin diaqnostikasında geniş istifadə olunur. KT ilə müqayisədə MRT müayinəsi zamanı orqanizm zərərli şüalanmaya məruz qalmır və bu müayinə növü prostat, uşaqlıq boynu, qaraciyər xərçənginin, habelə sümük və beyin metastazlarının daha dəqiq görüntülənməsinə imkan verir.

Bədənində müxtəlif implantlar, metal fraqmentləri, elektrokardiostimulyator, uşaqlıq daxili spiral, metal protez və ya insulin pompası olan insanlar MRT müayinəsindən əvvəl bu barədə mütləq radioloqa məlumat verməlidir. Həmçinin klaustrofobiyası olan (qapalı yerlərdən qorxan) pasiyentlər üçün MRT müayinəsi məqsədəuyğun deyil.

Məlumat üçün bildirək ki, icbari tibbi sığorta ilə qarşılanan tibbi xidmətlərdən istifadə etmək üçün Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki istənilən dövlət tibb müəssisəsinə və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 9 elmi-tədqiqat institutuna şəxsiyyət vəsiqəsi ilə müraciət etmək kifayətdir. Qeyd olunan müayinələrin dövlət tibb müəssisələrində aparılması mümkün olmadıqda vətəndaşa xidmətdən yararlanması üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə müqaviləsi olan özəl tibb müəssisələrinə göndəriş vərəqəsi verilir.

02_27 IYUI-QARA.qxd 1/18/2024 10:46 PM Page 14



# Vətənin qəhrəman oğlu şəhid Ramil Məmmədov...



***Tariximizə hünər, qeyrət, şərəf səhifəsi kimi daxil olan 44 günlük haqq savaşımızda qazandığımız qələbə ilə düşmən barışmaq istəmirdi. Separatçı qruplarının ölkəmizə qarşı dəfələrlə törətdiyi təxribatlar bunu çox aydın şəkildə göstərirdi. Məhz buna görə də şanlı ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi 19-20 sentyabr 2023-cü il tarixində altında lokal antiterror əməliyyatını keçirtdi.***

Nəticədə 24 saatlıq döyüşlərdə ordumuz tərəfindən məhv edilən erməni dığaların bütün arzuları ürəyində qaldı. Azərbaycan isə növbəti tarix qələbəsi ilə ərazi bütövlüyünün bərpasına nail oldu. Müzəffər Ali Baş Komandan və şanlı ordumuzun bu, haqq savaşında son damla qanına qədər vuruşub canını Vətənə fəda edən qəhrəman oğullar da çoxdur. İndi adı özündə xalqın qəhrəmanlıq simvolunu yaşadan belə Vətən sevdalıları arasında Masallı rayonu, Ərkivan qəsəbə ərazisinin Allahyarlı kəndində dünyaya göz açan şəhid Ramil Habil oğlu Məmmədov vardır. Ramil 19 yaşında şəhidlik şərbətini daddı. Məhz buna görə də ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır.

Təmiz ürəkli, vicdanlı, olduqca qeyrətli gənc olan Ramil Məmmədov 2023-cü il yanvarın 24-də ordu sıralarına yollanıb. Yüksək fiziki hazırlığı ilə fərqlənən Ramil Hərbi Dəniz Qüvvələrinin (HDQ) 1-ci dəniz piyadaları taborunda xidmət edir. Çox qisa bir zamanda komandirlərin sevimlisinə çevrilir, ətrafında olanların məhəbbətini qazanır. Təlim və məşğələlərdə, idman və atışlarda, döyüş məşvərət toplanışlarında heç kimdən geri qalmır, bütün sınaqlardan uğurla keçir. Cəsurluğu, çevikliyi, vətənpərvərliyi onu həmişə diqqət mərkəzində saxlayır . Vətənə sevgi, düşmənə nifrət onun həyat amalı olur. 2023-cü il 19 sentyabr tarixində Qarabağ bölgəsində həyata keçirilən qısamüddətli lokal antiterror tədbirlərinə könüllü qatılır, odlu-alovlu səngərlərdə yağı düşmənə qan qusdurur. Sentyabrın 19-da, axşam üstü döyüş meydanında yanına düşən mərmi qəlpəsindən şəhidlik zirvəsinə ucalır.

Ramilin bölük komandiri, baş leytenant Tural Həsənli deyir:- Harada idiksə, Ramil də bizimlə idi - çətin relyefli ərazilər, dağ-dərə. Vətən naminə ona həvalə olunan tapşırığı sakitcə, dəqiq, vaxtında yerinə yetirirdi. Həm də o, bilirdi ki, düşmən hələ Vətən torpaqlarını diş qıcıyır. Onun axırına çıxmaq üçün təlimlərdə nə qədər çox əziyyət çəksək, bir o qədər üstünlüyə sahib olarıq. Və belə də oldu, düşməni xalqımıza məxsus torpaqlardan tam qovduq. Ramil heç vaxt qorxu bilməz, canavar kimi döyüşkən idi. Həmişə öndə getməyə can atırdı. Ağdam rayonunun Xanabad kəndi istiqamətindəki hakim yüksəklikləri ələ keçirməli idik, Ramilin qanı bahasına buna nail olduq. Belə qəhrəmanlar torpağa gömülmür, köç etdikləri yer könüllər olur . Ramil indi təkcə Məmmədovların deyil, bütöv Azərbaycanın oğludur.

Respublika Prezidenti İlham Əliyevin 07 noyabr 2023-cü il tarixli Sərəncamı əsasında Azərbaycanın ərazi bütövlüyünün təmin olmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifəsini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyi üçün şəhid matros Məmmədov Ramil Habil oğlu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" medalı ilə təltif edilib.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Metro yanvarın 20-də iş rejimini dəyişəcək

***20 Yanvar faciəsinin ildönümü günü "Bakı Metropoliteni" QSC-də silsilə tədbirlər planlaşdırılıb və metronun iş rejimində dəyişikliklər ediləcək.***

"Unikal" bu barədə səhmdar cəmiyyətinə istinadən xəbər verir. Məlumata görə, faicənin ildönümü hər il olduğu kimi, bu il də metroda ehtiramla yad ediləcək.

Yanvar ayının əvvəlindən "20 Yanvar" stansiyasının vestibüllərinə, platformasına və digər xidməti sahələrinə baxış keçirilib, zəruri tədbirlərin təşkili üçün tapşırıqlar verilib. Stansiyada bərpa hazırlıq tədbirləri yekunlaşmaq üzrədir.

Yanvarın 19-dan 20-nə keçən gecə "20 Yanvar" stansiyasının sütunlarına və şəhidlərin adlarının həkk olunduğu lövhələrin yerləşdiyi vestibül sahələrində divarlara qərənfil tərtibatlı çələnglər asılacaq. Stansiyanın platformasının hər iki giriş sahəsində qərənfillərdən ibarət xüsusi tərtibatlı çələng qoyulacaq.

Metropolitenin kollektivi gün ərzində şəhidlərimizin, o cümlədən 20 Yanvar qurbanları arasında olan iki metropoli-




tençinin - İlqar Qarayev və Əflatun Kazımovun xatirəsinə ehtiram olaraq Şəhidlər xiyabanını ziyarət edəcək.

Yanvar ayının 20-si günün birinci yarısında "20 Yanvar" stansiyasının platformasında metropoliten işçilərindən ibarət qarovul dəstəsi düzüləcək. Bütün stansiyalarda mərkəzləşmiş radio şəbəkəsi vasitəsilə vətənpərvərlik mövzusunda musiqi parçaları səsləndiriləcək. Qatarlarda stansiyaların adlarını maşinistlər deyəcək.

"20 Yanvar", həmçinin Şəhidlər xiyabanına ən yaxın ərazilərdə yerləşən "İçərişəhər" və "Elmlər Akademiyası" stansiyalarında da gücləndirilmiş iş rejimi tətbiq olunacaq.

Qeyri-iş günü olsa da, ehtiyat qatarlar xüsusi qaydada nəzərdə tutulacaq və zərurət yaranacağı halda xəttə buraxılacaq.

Şəhidlərin xatirəsinə birdəqiqəlik sükut mərasimi 12:00-da Bakı metropoliteninin bütün stansiyalarında keçiriləcək və qatarlardan 1 dəqiqə ərzində fasiləsiz fit veriləcək. Bu məqsədlə xətlərdə olan bütün qatarlar stansiyalara çıxarılacaq.

Qanlı qırğının miqyasının daha böyük olmamasında Bakı metropoliteninin fədakar kollektivinin xüsusi əməyi olub. Həmin gecə Bakı metropoliteni rəhbərliyinin göstərişi ilə stansiyalarda səhərə qədər qatarların hərəkəti dayandırılmayıb. Növbədə olan, eləcə də həmkarlarının köməyinə çatan metropolitençilərin fədakarlığı sayəsində yüzlərlə insanın həyatı xilas edilib, yaralılar xəstəxanalara çatdırılıb, metropolitenin stansiya, platforma, tunel və keçidləri günahsız insanların xilas yerinə çevrilib.



## Hamiləlik və doğuşdan sonrakı məzuniyyət müddəti artırılsın - təklif

***Hamiləlik və doğuşdan sonrakı sosial məzuniyyət müddətinin artırılması təklif olunur.***

"Unikal" xəbər verir ki, bu təkliflə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev çıxış edib.

Komitə sədri xatırladıb ki, hazırda həmin məzuniyyət müddəti doğuşdan əvvəl və sonra 126 gün təşkil edir: "Əmək Məcəlləsinə ediləcək dəyişikliklə həmin müddətin 140 günə çatdırılması təmin edilə bilər".

***Anar Kəlbiyev***

## Parlamentdə yoluxucu xəstəliklərlə mübarizəyə dair dinləmə keçiriləcək

***Milli Məclisdə Yoluxucu xəstəliklərlə mübarizə ilə bağlı dinləmə keçiriləcək.***

Bu, parlamentin Səhiyyə komitəsinin 2024-cü il yaz sessiyası üçün İş planına daxil edilib.

Komitədə sessiya müddətində "Yoluxucu xəstəliklərlə mübarizə: qızılca infeksiyası ilə bağlı ölkədəki mövcud vəziyyət, peyvəndləmə və görülən tədbirlər"ə dair dinləmə təşkil edəcək.

## Orta məktəblərdə siqaret çəkmə halları çoxalıb

***Narkomaniya bütün dünyada olduğu kimi ölkəmizdə də yayılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib.

O qeyd edib ki, bu sahədə işlərin görülməsinə ehtiyac var: "Bu sahədə bizim görəcəyimiz işlər ola bilər. Digər tərəfdən orta məktəblərdə də siqaret çəkmə halları çoxalıb. Bu barədə bizə ciddi siqnallar daxil olur. Ona görə də bu sahədə ciddi dinləmənin keçirilməsi vacibdir".

## Ötən il Azərbaycanda kafe və restoranlara 2 mlrd. manatdan çox vəsait xərclənib

***2023-cü ildə ictimai iaşə dövriyyəsi 2022-ci illə müqayisədə real ifadədə 15,2% artaraq 2041,5 milyon manat təşkil edib.***

"APA-Economics" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, özəl sektorda ictimai iaşə dövriyyəsinin 50,6%-i hüquqi şəxslərin, 49,4%-i isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşür. Hüquqi şəxslər üzrə dövriyyə 2022-ci illə müqayisədə 15,6% artaraq 1024,1 milyon manat olunub.

02_27 IYUl-QARA.qxd 1/18/2024 10:46 PM Page 15



## "Müzakirə olunan variant bizə 45 km-ə qədər yol verəcək" - Erməni deputat



*"Bakı-Qazax-İcevan-Dilican xətti müzakirə olunmalıdır".*

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan parlamentinin deputatı Artsvik Minasyan deyib.

O, Meğri dəmir yolu xəttinin əleyhinə çıxıb: "Yolun 320 kilometrinin Ermənistanın yurisdiksiyasında olacağı Bakı-Qazax-İcevan-Dilican xətti müzakirə olunmalıdır. Bu halda heç bir qərar birtərəfli qaydada heç bir tərəfdən qəbul edilə bilməz və digər tərəfə təsir göstərə bilməz".

Deputatın sözlərinə görə, bu gün müzakirə olunan variant Ermənistan tərəfinə ən yaxşı halda 45 km-ə qədər, Azərbaycan tərəfinə isə 650-700 km-ə qədər yol verəcək.

Minasyan onu da qeyd edib ki, delimitasiya və demarkasiya proseslərində sərhəd kəndlərində minimal təhlükəsizlik şəraitinin yaradılması vacibdir.

***Ağarza Elçinoğlu***

## "Baydenə şirniyyat mağazasının idarəçiliyini belə etibar etmək olmaz" - Tramp

*"Amerikanın hazırkı lideri Co Baydenə hətta şirniyyat mağazasını idarə etmək də etibar edilə bilməz".*



"Unikal" xəbər verir ki, bunu ABŞ-nin keçmiş prezidenti Donald Tramp deyib.

"Şirniyyat mağazanız olsaydı, onu idarə etmək üçün Co Baydenə etibar edərdinizmi? Cavab belədir: heç kim ona güvənmir və o, ölkəni idarə edir, guya Rusiya prezidenti Vladimir Putin və Çin prezidenti Si Cinpin ilə danışıqlar aparır", - Tramp ifadə edib.

Tramp həmçinin qeyd edib ki, Baydenin siyasəti ucbatından ABŞ-nin 1929-1939-cu illərdə Böyük Depressiya zamanı olduğu kimi iqtisadi böhranla üzləşəcəyindən qorxur.

***Gülayə Mecid***

## Pakistan Hərbi Hava Qüvvələri İranın hava məkanına daxil olub



***Pakistan Hərbi Hava Qüvvələri İrandakı "anti-Pakistan qrupları"na raket zərbələri endirərkən İslam Respublikasının hava məkanına daxil olub.***

"Unikal" xəbər verir ki, bu barədə "Reuters" Pakistan kəşfiyyatındakı mənbəyə istinadən məlumat yayıb .

Bildirilir ki, Pakistan təyyarələri hücumlardan sonra İran hava məkanını tərk edib. Əməliyyatda neçə döyüşçünün iştirak etdiyi açıqlanmır.

Yanvarın 18-nə keçən gecə Pakistan İranın cənub-şərqində, Pakistanla sərhəddə yerləşən Seravan bölgəsində "anti-Pakistan qrupları"na zərbələr endirib.

## İran və Türkiyə XİN rəhbərləri telefonla danışdılar

***İran xarici işlər naziri Hüseyn Əmir Abdullahianla türkiyəli həmkarı Hakan Fidan arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, bu barədə İran XİN məlumat yayıb.

İran XİN rəhbəri region ölkələrinin təhlükəsizliyinin bir-birinə bağlı olduğunu bildirib.

# Lavrov Paşinyanın Naxçıvanla bağlı açıqlamasına cavab verdi

***"Paşinyanın (Ermənistanın baş naziri Nikol Paşinyan - red.) dediklərində heç bir məntiq görmədim".***



"Unikal" xəbər verir ki, bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib.

O, Paşinyanın Ermənistan ərazisindən Naxçıvan tranzitinin açılması ilə bağlı bəyanatlarına istinad edərək bildirib: "Cənab Paşinyanın dediklərində heç bir məntiq görmədim, düzünü desəm, bu marşrutları müqayisə etmək çətin ki, uyğun olsun".

Lavrov xatırladıb ki, Rusiya prezidenti Vladimir Putin, Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş nazirinin üçtərəfli bəyanatında iqtisadi və nəqliyyat əlaqələrinin açılması və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqənin təhlükəsizliyinə Ermənistanın zəmanət verməsi qeyd olunub: "Əminəm ki, Azərbaycanla Naxçıvan arasında nəqliyyat əlaqəsinin bərpasına alternativ yoxdur, onun parametrləri üçtərəfli sazişlə müəyyən edilib. Marşrut Rusiya FTX-nin sərhəd xidmətinin nəzarəti altında olan Ermənistanın suveren ərazisindən keçir. Orada Azərbaycandan Ermənistana giriş və Ermənistandan Azərbaycanın Naxçıvana çıxışı zamanı sərhəd və gömrük nəzarəti prosedurları prinsipcə razılaşdırılıb".

Qeyd edək ki, bir müddət əvvəl Nikol Paşinyan bildirmişdi ki, İrəvan İranla eyni şərtlərlə Azərbaycan üçün Naxçıvana yol açmağa hazırdır.

***Ağarza Elçinoğlu***

# "İran dünyada stabilliyin pozulmasına milyardlar xərcləyir" - İsaak Herzoq

***İsrail Prezidenti İsaak Herzoq İranı regional və qlobal stabilliyi pozmaqda ittiham edib.***

"Unikal" xəbər verir ki, o, bu barədə İsrail dövlət başçısı Davosda keçirilən Dünya İqtisadi Forumunda panel müzakirəsində deyib.

"Baş verən müharibə yalnız İsrail və HAMAS arasında deyil, dünya bunu görməlidir, Tehrandan gələn şər imperiyası silahlara milyardlar xərcləyir ki, dünyanın və regionun stabilliyini pozsun. İranın regionda proksiləri var və onlar dünyada stabilliyə, sülh prosesinə yönəlmiş addımlarla təhdid edirlər", - İsrail Prezidenti deyib.



# "Çinin baş naziri mənim səviyyəmdə deyil" - Zelenski

***Ukrayna prezidenti Volodimir Zelenski bu həftə Davosda keçiriləcək Dünya İqtisadi Forumu sammitində Çinin baş naziri Li Qianqın onunla görüşməkdən imtina etməsi xəbəri ilə bağlı sərt açıqlamalar verib.***



"Unikal" xəbər verir ki, Çinin baş nazirinin onunla eyni səviyyədə olmadığını deyən Zelenski, "Baş nazirimiz Çinin baş naziri ilə görüşür. Mən Çin lideri ilə görüşmək istərdim. Bildiyimə görə, Çində qərarları prezident Si Cinpin verir. Ukraynada da qərarları mən verirəm. Sadəcə dialoq qurmağa ehtiyacım yoxdur. Mənə liderlər lazımdır" deyib.

Xatırladaq ki, Çinin Baş naziri Li Qianq Davosda Zelenski ilə görüşməkdən imtina edib. Bildirək ki, Çin Ukrayna-Rusiya müharibəsində Moskvaya dəstək verən ölkələr sırasındadır.

***Gülayə Mecid***

## "Ölkələrin ərazi bütövlüyünün qorunması vacibdir" - BMT

***"Əgər biz ölkələrin ərazi bütövlüyünün pozula biləcəyi ilə razılaşmağa başlasaq, dünyada xaos yaradacağıq".***



"Unikal" xəbər verir ki, bunu BMT-nin baş katibi Antonio Quterreş Davosda Dünya İqtisadi Forumunda çıxışı zamanı deyib.

O, ölkələrin ərazi bütövlüyünün qorunmasının vacibliyini vurğulayıb. Dünya təşkilatı rəhbərinin sözlərinə görə, dünyada bir çox ölkələr var ki, onların başqa dövlətlərin ərazisi ilə bağlı ambisiyaları ola bilər.

"O qədər vəziyyət var ki, azlıqlar nə vaxtsa başqa ölkəyə mənsub olduqlarını bəyan edə bilərlər. Dövlətlərin ərazi bütövlüyü prinsipinin qorunub saxlanması son dərəcə vacibdir", - deyə o vurğulayıb.

***Gülayə Mecid***

## Rusiya son bir ildə Ermənistanda 3 mindən çox şirkət açıb

***Ermənistan 2023-cü ildə Rusiya vətəndaşlarının biznes qurduğu ilk üç ölkəyə daxil olub.***

"Unikal" xəbər verir ki, bu barədə "Forbes" jurnalı məlumat yayıb.

Nəşrin məlumatına görə, 2023-cü ildə rusların Ermənistanda açdıqları şirkətlərin sayı 3400, o cümlədən 2000-ə yaxın fərdi sahibkar olub.

02_27 IYUl-QARA.qxd 1/18/2024 10:46 PM Page 16



# "Qarabağ" millimizin üzvünün Polşa klubuna keçidinə icazə verdi - Rəsmi açıqlama




***"Qarabağ" futbolçusu Rahil Məmmədovun Polşanın LKS (Lodz) komandasına keçəcəyinə dair yayılan xəbərlərə münasibət bildirib.***

Bu haqda klubun mətbuat xidmətinin rəhbəri Anar Hacıyev məlumat verib. O, 28 yaşlı mərkəz müdafiəçisinə belə bir təklifin gəldiyini və futbolçunun həmin kluba keçmək ərəfəsində olduğunu təsdiqləyib:

"Rahil Məmmədov ona Polşa klubundan təklif gəldiyini, "Qarabağ" icazə verərsə, Avropada legioner həyatı yaşamaq istədiyini bildirdi. Məşqçilər korpusu və rəhbərlik yerli futbolçunun Avropada oynamaq şansını və perspektivini nəzərə alaraq Rahilə getməklə bağlı icazə verdi. Futbolçu yaxın günlərdə həkim müayinəsindən keçəcək. Prosesin uğurla nəticələnəcəyi halda, klubumuz Rahilin keçidinə şərait yaradacaq. Klubumuz hər zaman idman prinsiplərini üstün tutur və nəticələrlə azarkeşlərimizi sevindirmək əsas prioritetdir. Bildiyiniz kimi, hazırkı qış transfer dönəmində bir neçə futbolçumuza təkliflər olsa da, heç bir futbolçunun buraxılması qərarı verilmişdi. Amma baş məşqçimiz Qurban Qurbanov Rahilin milli komandamızın üzvü olmasını, legioner həyatı yaşamaq istəyini və karyera perspektivini nəzərə alaraq bu təklifin istisna hal kimi dəyərləndirilməsini istədi və rəhbərlik məsələyə etiraz etmədi" - deyə A.Hacıyev bildirib.

Qeyd edək ki, R.Məmmədovun "Qarabağ"la müqaviləsi bu ilin iyun ayında başa çatır. O, 2018-ci ilin yayından "Qarabağ"da oynayır.

Əlavə edək ki, LKS Polşa yüksək liqasında yarışır. Hazırda onlar 18 komanda arasında 18 oyundan 10 xalla sonuncu yeri tuturlar.

# Allegri: "İtaliya futbolu böyük məşqçisini itirdi"

***"Yuventus"un baş məşqçisi Massimiliano Allegri həmkarı Joze Mourinyonun "Roma"dan qovulmasına münasibət bildirib.***



QOL.az xəbər verir ki, mütəxəssis klubun bu qərarı haqqında deyib: "Çox üzr istəyirəm, çünki İtaliya futbolu böyük məşqçini itirdi. O, karyerasında çox şey əldə edib və "Roma"da qeyri-adi uğurlar qazanıb.

Bu, kənardan sadə görünür. Mourinyoya da, məşqçilik yolunun başlanğıcında olan Daniele De Rossiyə də uğurlar arzulayıram".

Qeyd edək ki, "Roma" və Mourinyo 2 gün əvvəl yolları ayırıblar. Komandaya baş məşqçilik etmək Daniele De Rossiyə tapşırılıb.

# Xavi: "Oyunçular məni dəstəkləməyi dayandıranda, əşyalarımı yığıb gedəcəyəm"

***"Barselona"nın baş məşqçisi Xavi Kataloniya klubundakı gələcəyindən danışıb.***

QOL.az sport.es-ə istinadən xəbər verir ki, mütəxəssis deyib: "Oyunçular məni dəstəkləməyi dayandıran gün əşyalarımı yığıb evə gedəcəyəm. Finalda, "Real"la matçda məğlubiyyətlər ağrı və təzyiq yaradır. Amma komanda güclüdür, oyunçular bizə inanırlar. Düzdür, çox zəif oynadıq, lakin biz ötən mövsümün uğurunu təkrarlamaq istəyirik".

Bundan əvvəl Xavinin "Real"la İspaniya Superkubokunun finalında "Real"a (1:4) məğlubiyyətdən sonra "Barselona"dan qovulacağına dair məlumatlar yayılmışdı.

Hazırda "Barselona" İspaniya çempionatında 41 xalla 3-cü yeri tutur.



# Afrika Kuboku: Mərakeş qələbə qazandı

***Kot-d'İvuarda təşkil olunan Afrika Millətlər Kubokunda qrup mərhələsinin ilk turunun oyunları davam edir.***



"Unikal" xəbər verir ki, F qrupunda iki matç keçirilib.

Mərakeş millisi Tanzaniya seçməsinə 3:0 hesabı ilə qalib gəlib. Qrupun digər qarşılaşmasında isə Konqo Zambiya ilə 1:1 hesablı heç-heçə edib.

Fevralın 11-dək davam edəcək Afrika Millətlər Kubokunun mükafat fondu 7 milyon ABŞ dollarıdır.

# "Qarabağ" "Şaxtyor"un futbolçusunu istəyir



***Donetsk "Şaxtyor"unun futbolçusu Aleksey Kaşukla maraqlanan klubların sayı artmaqdadır. Daha 3 klub bu futbolçu üçün mübarizəyə qoşulub.***

Ukraynalı həmkarlarımızın yazdığına görə, onlardan 2-si Azərbaycan təmsilçisidir.

"Neftçi"dən sonra "Qarabağ" və Kaşukun sabiq komandası "Sabah" onun transferi üçün çalışır.

Xatırladaq ki, "Neftçi"nin yarımmüdafiəçini istədiyi bir müddət əvvəl yazılırdı. Bundan başqa İsveçrənin "Bazel", Yunanıstanın PAOK, Xorvatiyanın "Hayduk" klubları Kaşuku heyətə qatmaq istəyir.

Qeyd edək ki, Aleksey Kaşukun "Şaxtyor"la sözləşməsi mövsümün sonuna qədərdi. O, 2022-23 mövsümündə "Sabah"ın formasını geyinib.

# Fransa klubu isveçrəli futbolçu transfer etdi

***Marsel "Olimpik"i yeni transferi gerçəkləşdirib.***



"Unikal" klubun mətbuat xidmətinə istinadən xəbər verir ki, Fransa təmsilçisi "Yanq Boyz"un müdafiəçisi Ulisses Qarsiya ilə anlaşıb.

Marsel təmsilçisi 28 yaşlı isveçrəli futbolçu üçün 4 milyon avro ödəyib. Müqaviləyə əsasən isveçrəli 2028-ci il iyunun 30-na qədər bu kluba məxsus olacaq.

Qarsiya əvvəllər "Verder" və "Nürnberq" klublarında çıxış edib.

# "Napoli" yeni müqavilə imzalamağa hazırlaşır

***"Napoli" sağ cinah oyunçusu Matteo Politano ilə yeni sözləşmə imzalamağa hazırlaşır.***

QOL.az xəbər verir ki, bu barədə insayder Fabrizio Romano məlumat yayıb. Tərəflər müqaviləni 3 illik uzatmaq üçün razılaşıblar. 30 yaşlı futbolçunun əvvəlki sözləşməsi isə 2025-ci ilin yayına qədər idi.

Politano ilə klub prezidenti Aurelio de Laurentis şəxsən görüşüb.

Cari mövsümdə italiyalı vinger bütün yarışlarda 26 oyuna çıxıb, 7 qol vurub və 5 qolun ötürməsini verib.

# "Tottenhem"dən digər Premyer Liqa klubuna

***"Tottenhem"in sol cinah müdafiəçisi Serxio Reqilonun "Brentford"a keçidi rəsmiləşib.***

QOL.az xəbər verir ki, bu barədə London təmsilçisinin mətbuat xidməti məlumat yayıb. 27 yaşlı futbolçu cari mövsümün sonunadək icarə əsasında "Brentford"da oynayacaq.

O, 2023/24 mövsümünün ilk hissəsini icarə əsasında "Mançester Yunayted"də keçirib. Serxio "qırmızı şeytanlar"ın heyətində bütün turnirlərdə 12 oyuna çıxıb.

Reqilonun "Tottenhem"lə müqaviləsi 2025-ci ilin yayına qədərdir.